RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 110 (9277) 26 MAY 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




◆ Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri

## Moskvanın Vnukovo-2 Beynəlxalq Hava Limanında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə mayın 25-də Moskvaya işgüzar səfərə gedib.**

AZƏRTAC xəbər verir ki, Moskvanın Vnukovo-2 Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin və digər rəsmi şəxslər qarşıladılar.

## Dövlət və hökumət başçılarının şərəfinə işçi səhər yeməyi verilib

### Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib

**Mayın 25-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin adından Ali Avrasiya İqtisadi Şurasının üzv, müşahidəçi və dəvət olunmuş ölkələrin dövlət və hökumət başçılarının şərəfinə işçi səhər yeməyi verilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

# Prezident İlham Əliyev Paşinyanı bir daha ifşa etdi




## Prezident İlham Əliyev Moskvada Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasında iştirak edib

**Mayın 25-də Moskvada Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə qonaq qismində iştirak edib.**

Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasını Rusiya Prezidenti Vladimir Putin açdı.

Azərbaycan Prezidentinin Ali Avrasiya İqtisadi Şurasının iclasında qonaq qismində iştirak etdiyini vurğulayan Rusiya Prezidenti dedi:

- Mənim üçün qeyd etmək xoşdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev bugünkü iclasda ilk dəfədir qonaq qismində iştirak edir. Mən onu və Azərbaycan nümayəndə heyətini salamlamaq istərdim.

Sonra Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasında iştirak edən üzv dövlətlərin başçıları çıxış etdilər.

Təşkilatda müşahidəçi ölkə olan Özbəkistanın Prezidenti Şavkat Mirziyoyev iclasda videobağlantı vasitəsilə çıxış etdi, daha sonra Kuba Prezidenti Migel Diaz-Kanelin iclas iştirakçılarına videomüraciəti nümayiş olundu.

→ 2

## Rusiya-Azərbaycan münasibətləri yüksək səviyyədədir

### Moskvada Prezident İlham Əliyevin Prezident Vladimir Putinlə görüşü olub

**Mayın 25-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Rusiya Prezidenti **Vladimir Putin** dedi:

- Hörmətli İlham Heydər oğlu. Hörmətli həmkarlar.

İlk növbədə Sizi bir daha salamlamaq və Azərbaycan Prezidentinə Avrasiya İqtisadi Birliyi çərçivəsində bizim bugünkü görüşümüzə qoşulması qərarını qəbul etdiyi üçün təşəkkür etmək istəyirəm.

→ 3



## Üçtərəfli Zirvə görüşü

**Mayın 25-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə üçtərəfli Zirvə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Zirvə görüşündə çıxış edən Rusiya Prezidenti **Vladimir Putin** dedi:

- Hörmətli İlham Heydər oğlu. Hörmətli Nikol Vovayeviç.

Hörmətli həmkarlar, dostlar.

Biz növbəti görüşümüzün keçirilməsinə dair təklifə operativ reaksiya verdiyiniz üçün minnətdarıq və ümid edirəm ki, bu, bizim artıq çoxdan danışdığımız bəzi məsələlərin



praktik həllində yaxşı müqəddimə olacaq.

Məhz bizim formatda bir çox məsələlərə dair uğur əldə etmək mümkün olub. 2020-ci ilin payızında təkcə hərbi əməliyyatlar dayanmayıb, sonra iqtisadi və nəqliyyat kommunikasiyalarının blokadasının aradan qaldırılması, sərhədlərin delimitasiyası üzrə işlərə başlanılıb.

→ 3

## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri

# Prezident İlham Əliyev Paşinyanı bir daha ifşa etdi

*Əvvəli 1-ci səh.*

**Rusiya Prezidenti Vladimir Putin dedi:** Mən məmnuniyyətlə sözü qonaqlarımıza verirəm. Bir daha təkrar etdiyim kimi, sözü belə tədbirlərdə ilk dəfə iştirak edən Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevə verirəm. İlham Heydər oğlu, söz Sizə verilir, buyurun.

Dövlətimizin başçısı iclasda çıxış etdi.



## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Vladimir Vladimiroviç.

Hörmətli dövlət başçıları, hörmətli iclas iştirakçıları.

İlk növbədə Avrasiya İqtisadi Birliyinin üzv dövlətlərinin sammitinin işində qonaq qismində iştirak etməyə dəvətinə görə Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinə təşəkkürümü bildirmək istəyirəm.

Ermənistan istisna olmaqla, Azərbaycanın Avrasiya İqtisadi Birliyinin üzvləri ilə əməkdaşlığı 30 il ərzində uğurla inkişaf edir. Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması əsasında ciddi imkanlar var. Bu gün Rusiya tərəfinin təşəbbüsü ilə Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin üçtərəfli görüşü olacaq.

Həmkarlarıma məlumat vermək istəyirəm ki, ötən il Azərbaycanın Avrasiya İqtisadi Birliyi ilə əmtəə dövriyyəsi 31 faiz artıb və 4,7 milyard dollar təşkil edib. Bu ilin yanvar-aprel aylarında qarşılıqlı ticarətin həcmi daha 38 faiz artıb. Ötən il Avrasiya İqtisadi Birliyinə üzv ölkələrin Azərbaycanın xarici ticarət dövriyyəsində payı 9 faizə yaxın olub. Biz əmtəə dövriyyəsinin gələcək artımında böyük potensialın olduğunu görürük. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat yollarının coğrafi kəsişməsində yerləşir. Ölkəmizin nəqliyyat-logistika infrastrukturu bütün istiqamətlərdə daşımaları həyata keçirməyə imkan verir. Azərbaycan Xəzərdə 50 gəmidən ibarət ən böyük ticarət donanmasına malikdir. On beş milyon ton yükün daşınmasına hesablanmış Ələt Dəniz Limanı yaxın vaxtlarda modernləşdiriləcək və yükaşırmaların həcmi 25 milyon tona çatacaq. Son zamanlar Azərbaycan ərazisindən yükdaşımaların artmasını nəzərə alsaq, bu, xüsusilə vacibdir. Bakıda artıq bir neçə ildir bütün növ gəmilər hazırlaya bilən müasir gəmiqayırma tərsanəsi fəaliyyət göstərir. Bildirməyə şadam ki, Azərbaycanın gəmiqayırma imkanları bu gün, həmçinin bizim Xəzərdəki qonşularımıza da təqdim olunub. Bakı gəmiqayırma zavodunda bizim Xəzər üzrə qonşularımızın sifarişlərinin qəbul edilməsi üzrə danışıqlar və fəal iş aparılır.

Bakı-Tbilisi-Qars dəmir yolu Avropaya, həmçinin Türkiyənin Aralıq dənizi limanlarına çıxışı təmin edir. Azərbaycan "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin fəal iştirakçısıdır. Biz həmçinin ölkənin əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, həm də beynəlxalq dəmir yolu marşrutlarının bir hissəsi olacaq Zəngəzur dəhlizinin yaradılması təşəbbüsünü irəli sürmüşük. Azərbaycanda 8 beynəlxalq aeroport fəaliyyət göstərir. Onlardan ikisi işğaldan azad olunmuş torpaqlarda - Füzuli və Zəngilanda son iki ildə tikilib. Doqquzuncu beynəlxalq aeroport azad olunmuş Laçında tikilir və 2025-ci ildə istismara veriləcək. Ölkəmiz illik 500 min ton yük dövriyyəsi ilə regionda ən iri hava yük donanmasına malikdir. Azərbaycan iqtisadiyyatı müstəqilliyin, demək olar ki, bütün dövrü ərzində dayanıqlılıq və artım nümayiş etdirir.

Biz tam iqtisadi müstəqilliyə nail olmuşuq. Bu da bizim uğurla həyata keçirdiyimiz müstəqil xarici siyasət kursunu aparmaq imkanının mühüm amilidir. Təxminən dörd ildir Azərbaycan 120 dövləti birləşdirən Qoşulmama Hərəkatına uğurla sədrlik edir. Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatından sonra sayca ikinci beynəlxalq təsisatdır. Azərbaycan iqtisadiyyatı özü-özünü təmin edir və kənardan dəstəyə ehtiyacı yoxdur. Son 20 il ərzində ölkəmizin ümumi daxili məhsulu (ÜDM) 3 dəfədən çox artıb. Yoxsulluğun səviyyəsi təxminən 50 faizdən 5 faizə enib. Xarici borc ÜDM-in demək olar ki, 9 faizindən aşağı səviyyəsindədir və ildən-ilə azalır. Azərbaycanın valyuta ehtiyatları xarici borcu 10 dəfə üstələyir. Hazırda qarşımızda duran başlıca məsələlərdən biri ixracın şaxələndirilməsidir. İqtisadiyyatın şaxələndirilməsinə gəlincə, bu məsələ uğurla həll olunur. Azərbaycan iqtisadiyyatının böyük hissəsi artıq qeyri-xammal sektorunda formalaşır. İxracata gəlincə, qeyri-xammal sektorunun ixracını artırmaqdan ötrü biz hələ fəal işləməliyik.

Baxmayaraq ki, işsizliyin səviyyəsi cəmi 5 faiz təşkil edir, demoqrafik artım, - son 30 il ərzində Azərbaycan əhalisinin sayı 7 milyondan 10 milyona qalxıb, - yeni iş yerlərinin yaradılması üzrə fəal səylər tələb edir. Biz, əlbəttə, Avrasiya İqtisadi Birliyinə üzv ölkələrlə fəal qarşılıqlı əlaqələri həm ikitərəfli formatda, - biz bunu uğurla edirik, - həm də çoxtərəfli formatda möhkəmləndirmək fikrindəyik.

Artıq qeyd olunduğu kimi, mən Avrasiya İqtisadi Birliyinin sammitində ilk dəfədir iştirak edirəm. Halbuki, biz Avrasiya İqtisadi Birliyinə üzv dövlətlərin başçıları ilə həm Müstəqil Dövlətlər Birliyinin sammitləri çərçivəsində, həm də ikitərəfli formatda müntəzəm görüşürük. Buna görə də baxmayaraq mən ilk dəfədir qonaq qismində iştirak edirəm, lakin yəqin ki, burada qonaq deyiləm. Bu gün bizim ünsiyyət qurmaq imkanımız oldu, ünsiyyətimiz davam edəcək. Vladimir Vladimiroviç, sonda bir daha Sizə dəvət üçün, eləcə də bütün həmkarlarıma bu dəvəti dəstəklədiklərinə görə təşəkkür etmək istərdim. Sağ olun.

**Prezident Vladimir Putin:** Çox sağ olun. Həqiqətən, Azərbaycanın ikitərəfli formatda təşkilata üzv ölkələrimizlə iqtisadi münasibətləri müntəzəm artır və bizim hamımız üçün - həm Azərbaycan üçün, həm də təşkilatın hər bir iştirakçı ölkəsi üçün əhəmiyyət kəsb edir.

❖ ❖ ❖

Sonra Tacikistan Prezidenti Emoməli Rəhmon iclasda videobağlantı vasitəsilə çıxış etdi.

**Prezident Vladimir Putin:** Artıq dediyim kimi, həm Azərbaycan, həm də Tacikistanla münasibətlərimiz ikitərəfli planda fəal şəkildə inkişaf edir. Ona görə də belə çoxtərəfli formatda müzakirələrə qoşulmaq, şübhəsiz ki, yalnız faydalı ola bilər. Son nəticədə Tacikistan və Azərbaycan bizim təşkilatın işində necə fəal iştirakları ilə bağlı qərarlar qəbul edəcəklər. Bu, tam şəkildə Özbəkistana da aiddir. Bizim ümumi işimizdə və bugünkü tədbirimizdə iştiraklarına görə həmkarlarıma təşəkkürümü bildirirəm.

Sözü Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri...

**Baş nazir Nikol Paşinyan:** Üzr istəyirəm, Vladimir Vladimiroviç, olar? Mənim kiçik replikam var.

**Prezident Vladimir Putin:** Bəli, buyurun, xahiş edirəm.

**Baş nazir Nikol Paşinyan:** Azərbaycan Prezidenti çıxışında son illər Ermənistana qarşı ərazi iddialarının irəli sürülməsinə əsas verən ifadədən istifadə etdi. Demək istəyirəm ki, bu, 2020-ci il 9 noyabr tarixli üçtərəfli Bəyanatın 9-cu bəndinin yerinə yetirilməsi çərçivəsində istifadə olunur. Vurğulamaq istərdim ki, bu bəyanatda təkcə bir dəhliz haqqında deyilir və bu, Laçın dəhlizidir. O, Rusiya sülhməramlılarının nəzarəti altında olmalı idi, lakin təəssüf ki, Azərbaycan tərəfindən qanunsuz olaraq bloklanıb. Digər tərəfdən, Ermənistan Respublikasının regionda bütün nəqliyyat və iqtisadi kommunikasiyaların və Ermənistan Respublikasının ərazisindən keçən kommunikasiyaların blokadadan çıxarılmasına hazır olduğunu vurğulamaq istəyirəm. Biz bunu erməni yolayrıcı adlandırırıq. Biz regional kommunikasiyaların onların keçdiyi ölkələrin suverenliyi və yurisdiksiyası çərçivəsində açılmasına hazırıq. Mən 2020-ci il 9 noyabr tarixli üçtərəfli Bəyanatın 9-cu bəndində və 2021-ci il 11 yanvar tarixli üçtərəfli Bəyanatda nəzərdə tutulan nəqliyyat, iqtisadi kommunikasiyaları nəzərdə tuturam. Sağ olun.

**Prezident Vladimir Putin:** Çox sağ olun. Lakin eşitdiyim kimi, Prezident Əliyev çıxışında məhz hələ 1991-ci ildə təsdiq olunmuş sazişlərlə uyğun şəkildə müvafiq sərhədlərin tanınması ilə bağlı şəraitin yaradılmasından danışdı. Bu şərtlər belə bir qənaət hasil etməyə əsas verir ki, Azərbaycanla Ermənistan arasında müvafiq, o cümlədən nəqliyyat kommunikasiyaları üzrə razılaşmalara nail oluna bilər.

Mənim üçün qeyd etmək çox xoşdur ki, Ermənistanın baş naziri ölkəsinin də bu cür düşündüyünü dedi. O hesab edir ki, bu, mümkündür və müsbət düşünür. Lakin mənə elə gəlir ki, bu gün biz üçtərəfli görüşdə bütün bunları müzakirə edə bilərik. Ümidvaram, tamamilə aydındır ki, həm Azərbaycanın, həm Ermənistanın, eləcə də bütün regionun iqtisadi inkişafına dair məsələlərlə bağlı razılıq əldə edə biləcəyik. Mənə elə gəlir ki, bizim bunu üçtərəfli formatda detallı şəkildə müzakirə etməyə vaxtımız olacaq.

**Prezident İlham Əliyev:** Mən, əlbəttə, diskussiya açmaq istəmirəm. Lakin Ermənistana qarşı ərazi iddialarımızın olması barədə ittihamlar səsləndiyinə görə demək istəyirəm ki, bizim belə iddialarımız yoxdur. Mənim sözlərimdə ərazi iddialarının olmasını görmək üçün xüsusi canfəşanlıq etmək və ya güclü fantaziyaya malik olmaq lazımdır. Mənim istifadə etdiyim "dəhliz" sözünə gəldikdə, o zaman mən bu kəlməni dəqiq olaraq "Şimal-Cənub" dəhlizinə münasibətdə də işlətmişəm, bu söz elə həmin dəqiqliklə "Şərq-Qərb" dəhlizinə münasibətdə də istifadə olunur. "Dəhliz" sözü heç də kiminsə ərazisinə göz dikmək demək deyil. Bu, beynəlxalq termindir və düşünürəm, beynəlxalq terminologiya ilə tanış olan insanlar yəqin ki, ona bu gün Ermənistanın baş naziri kimi məna verməzdilər. Vladimir Vladimiroviçin dediyi kimi və Ermənistanın rəsmən Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdığını nəzərə alsaq, hesab edirəm ki, sülh sazişinə nail olmaq üçün imkanlar var. Sağ olun.

**Baş nazir Nikol Paşinyan:** Vladimir Vladimiroviç, üzr istəyirəm. Demək istəyirəm ki, 2020-ci il 9 noyabr tarixli üçtərəfli Bəyanatın mətni ilə tanış olan hər kəs bilir ki, bu bəyanatda "dəhliz" sözü yalnız bir halda işlənilib. Bu kontekstdə həmin söz xüsusi məna daşıyır. Bu da, təkrar edirəm, üçtərəfli Bəyanata uyğun olaraq Rusiya Federasiyasının nəzarəti altında olmalı olan və Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi haqqındadır. Lakin, təəssüf ki, Azərbaycan Rusiya sülhməramlılarının nəzarətində olan bu dəhlizi qanunsuz şəkildə bloklayıb. Digər tərəfdən, təsdiq etmək istəyirəm ki, Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünü qarşılıqlı surətdə tanımaqla bağlı razılaşıblar. Demək olar ki, biz bu əsasda münasibətlərimizin nizama salınması istiqamətində kifayət qədər yaxşı irəliləyirik.

Bu kontekstdə çox mühüm məsələni qeyd etmək istəyirəm. Ümidvaram ki, "Dağlıq Qarabağ" sakinlərinin hüquqları və təhlükəsizliyi məsələsinin beynəlxalq mexanizmlər çərçivəsində həlli üçün tezliklə Bakı və "Stepanakert" arasında normal, konstruktiv dialoq başlayacaq. Sağ olun.

**Prezident Vladimir Putin:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Vladimir Vladimiroviç, bağışlayın, Ermənistanın baş nazirinin sözlərində yenə ittiham səsləndi. Əgər Siz diqqət etdinizsə, nə çıxış zamanı, nə də replika zamanı mənim sözlərimdə heç bir ittiham yox idi. Amma mən bunu, sadəcə, cavabsız qoya bilmərəm. Başa düşürəm, biz diskussiyanı bir az başqa istiqamətə aparırıq, hərçənd düşünürəm ki, bu, bir çoxları üçün maraqlıdır. İcazənizlə cavab verim və deyim ki, Azərbaycan heç bir dəhlizi bloklamayıb. Laçın-Xankəndi yoluna gəldikdə, o açıqdır. Sizin tanıdığınız Ermənistan və Azərbaycan sərhədində bütün beynəlxalq normalara uyğun olaraq nəzarət-buraxılış məntəqəsi qoyulub. Bu nəzarət-buraxılış məntəqəsi Rusiya sülhməramlı kontingentinin postundan 20 metr aralıda yerləşir. Bu gün həmin nəzarət-buraxılış məntəqəsindən erməni milliyyətindən olan Azərbaycan vətəndaşları və Xankəndi şəhərindən təcili yardım maşınları keçir. Hər hansı qərəzsiz insan, təbii ki, bunu görməlidir. Zənnimcə, kürsüdən əsası olmayan ittihamlar üçün istifadə etmək lazım deyil. Dediyim Zəngəzur dəhlizinə gəlincə, əgər mənim çıxışıma diqqətlə qulaq asılsa, orada deyilir ki, "Azərbaycan Zəngəzur dəhlizinin yaradılması təşəbbüsünü irəli sürüb". Hər hansı təşəbbüslə çıxış etmək bizim hüququmuzdur. Bizim doğru, legitim, ağlabatan hesab etdiklərimiz, yeri gəlmişkən, o cümlədən Rusiya Federasiyası, Ermənistan və Azərbaycan arasında münasibətlərin nizamlanması prosesinə cəlb olunmuş digərləri tərəfindən də dəstəklənir.

**Baş nazir Nikol Paşinyan:** Çox maraqlıdır, sağ olun. Vladimir Vladimiroviç, üzr istəyirəm, mənə çox maraqlıdır bilim ki, Sizin dediyiniz həmin layihəni Rusiya dəstəkləyirmi. Düzünü desəm, mən bu barədə ilk dəfədir eşidirəm. Bilirəm ki, Rusiya bizim regionda bütün nəqliyyat və iqtisadi kommunikasiyaların açılmasını dəstəkləyir. Sizin dediyiniz Laçın yoluna gəlincə, bizim üçtərəfli Bəyanatımıza əsasən, Laçın yolu mövcud deyil, Laçın dəhlizi mövcuddur, biz üçümüzün imzaladığımız üçtərəfli Bəyanata əsasən, Rusiya sülhməramlı qüvvələrinin nəzarəti altında olmalıdır. Yaxud, başqa heç kim həmin dəhlizdə heç bir nəzarət həyata keçirə bilməz. Orada baş verənlər - üçtərəfli Bəyanatın birbaşa pozulmasıdır. Siz dediniz ki, dəhliz açıqdır. Biz bunu görmürük. Biz belə hesab etmirik, buna görə də vacib hesab edirik ki, həm Laçın dəhlizinə, həm də Dağlıq Qarabağa beynəlxalq missiya göndərilsin və bu missiya Dağlıq Qarabağda humanitar vəziyyəti dəyərləndirsin. Deməliyəm ki, orada təəssüflər olsun, dekabr ayından bəri humanitar böhran yaşayırıq. Çünki Laçın dəhlizinin bağlanması səbəbindən ərzaq və zəruri məhsulların tədarükü üçün maneələr yaradılır. Bu, olduqca ciddi vəziyyətdir, Azərbaycan tərəfindən qaz, elektrik kəsilib. Mən Dağlıq Qarabağa gedən qaz və elektriki nəzərdə tuturam. Vladimir Vladimiroviç, Siz bu barədə çox yaxşı bilirsiniz, çünki biz bu barədə dəfələrlə danışmışıq. Mən üzr istəyirəm, lakin belə çıxır ki, ...

**Prezident Vladimir Putin:** Mən sizin siqnalları gördüm və buna reaksiya verim. Həmkarlar öz mövqelərini söylədilər, qısaca, dürüst ifadə etdilər, bu, onlar üçün vacibdir. Bax, bunu demək istəyirəm. Bu hissənin sonunda mənə elə gəlir ki, biz sizinlə üçümüz hər halda yaxşı bilirik, terminologiya başqa sözlə hüquqi texnikadır, dəhliz, digərləri, digərləri - bu, vacibdir və burada müəyyən ziddiyyət var. Lakin daha vacib olanı indi Sizin - həm Azərbaycan Prezidentinin, həm Ermənistan baş nazirinin dediyi kimi, prinsipial məsələ ərazi bütövlüyü məsələsidir. Bu razılaşma prinsipial xarakterlidir. Bu, digər, hər halda ikinci dərəcəli məsələlər üzrə razılığa gəlmək üçün həqiqətən bazadır. Halbuki onlar da mühüm əhəmiyyətə malikdir. Lakin bizim indi imkanımız olacaq ki, razılaşdığımız kimi üçtərəfli formatda bütün bunlar barədə sakit və işgüzar şəraitdə danışaq. Mən ümidvaram ki, təkcə Ermənistan və Azərbaycan arasında deyil, həm də bütövlükdə regionda vəziyyəti belə konstruktiv yola çıxaracaq hansısa razılaşmaya nail olacağıq. Sizi inandırmaq istərdim ki, buraya toplaşanların hamısı bunda maraqlıdır. Tam hamısı. Bax, Aleksandr Qriqoryeviç bu gün bu barədə qapalı formatda kifayət qədər inandırıcı danışdı.

Çünki hər halda, burada nə deyəsən, burada Sovet İttifaqının keçmiş respublikalarıdır. Biz vahid xalqlar ailəsində yaşamışıq və əfsuslar olsun ki, burada bizim xeyli ziddiyyətlərimiz var, silahlı münaqişələrə gedib çıxır. Rusiyada da məlum istiqamətdə eynisi baş verir. Buna görə də bütün bunlar olduqca həssasdır, bütün bunlar insan faciələri ilə bağlıdır. Biz hamımız maraqlıyıq ki, bütün bu problemlər həll olunsun. Bu vəziyyətə gəlincə, bir daha təkrar edirəm, bizim üçtərəfli formatda danışmaq fürsətimiz olacaq. Buna görə də Ermənistanın baş nazirinə və Azərbaycan Prezidentinə gəldiklərinə görə minnətdaram. Ermənistanın baş nazirinə minnətdaram ki, o, bu səfərə mane olmayıb. Biz hamımız buraya toplaşmışıq ki, bu həssas mövzular barədə danışaq.

❖ ❖ ❖

Sonra Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri Mixail Myasnikoviç çıxış etdi.

Üzv dövlətlərin başçıları iclasın yekun sənədlərini imzaladılar.

Rusiya Prezidenti Vladimir Putin iclasın işinə yekun vurdu.

## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri

# Rusiya-Azərbaycan münasibətləri yüksək səviyyədədir

## Moskvada Prezident İlham Əliyevin Prezident Vladimir Putinlə görüşü olub

*Əvvəli 1-ci səh.*



Artıq deyildiyi kimi, formal olaraq qonaq qismində, lakin həqiqətən, İlham Heydər oğlu haqlıdır, bu, çox şərti addır, çünki Azərbaycan ilə Avrasiya İqtisadi Birliyinin iştirakçısı olan bütün ölkələr arasında münasibətlərin səviyyəsi və xarakteri ciddi, dərin məna daşıyır. İqtisadi-ticari əlaqələr ardıcıl şəkildə inkişaf edir və bütün xalqlarımız arasında münasibətlərin möhkəmlənməsi istiqamətində irəliləyir. Mən çox istərdim ki, gələcəkdə də belə davam etsin, çünki regional əməkdaşlıq potensialı çox yüksəkdir.

İkitərəfli əsasda götürüldükdə ümumilikdə Rusiya-Azərbaycan münasibətləri yüksək səviyyədədir, həmçinin ardıcıl olaraq, bərabərhüquqlu prinsiplərlə, bir-birinin maraqlarını nəzərə almaqla və 2022-ci ilin fevralında imzalanmış Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannaməyə uyğun şəkildə inkişaf edir. Biz hamımız buna çox şadıq.

Bu il Heydər Əlirza oğlu Əliyevin 100 illiyi bayram edilir. Siz həm Sovet İttifaqının, həm də müstəqil Azərbaycanın bu siyasi xadiminə bizim münasibətimizi bilirsiniz. Bu görkəmli siyasi xadim ölkələrimizin tarixində birləşdirici simadır. O da yaxşı məlumdur ki, biz Rusiyada bu yubileyi layiqincə qeyd etdik. Dövlət Dumasında və Federasiya Şurasında sərgilər keçirildi, televiziyada sənədli filmlərin nümayişi oldu. Rusiya Federasiyasının regionlarında da çoxlu tədbirlər oldu. Bu tədbirlər təkcə paytaxtda keçirilmədi, həmçinin Heydər Əliyevin daim xatırlandığı Kazanda, Həştərxanda, Dağıstanda, BAM-da, o cümlədən Moskva-Tında qatarının təntənəli yola salınması və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi BAM-ın tikintisinə kuratorluq edən Heydər Əliyevin adının verildiyi Anqoya stansiyasında da tədbirlər oldu.

Bunlar mənim əvvəldə söyləmək istədiklərimdir və mətbuat çıxandan sonra biz başqa məsələlər barədə də danışarıq. Buyurun.

❖ ❖ ❖

**Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

- Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç. İlk növbədə Avrasiya İqtisadi Birliyinin sammitinə dəvətə görə bir daha təşəkkürümü bildirirəm.

Bu gün qeyd olunduğu kimi, mən bu təşkilatın sammitində ilk dəfədir iştirak edirəm. Baxmayaraq ki, biz artıq həmkarlarla fikir mübadiləsi aparmışıq, həm Müstəqil Dövlətlər Birliyinin, həm də digər beynəlxalq təşkilatların platformalarında və əlbəttə, ikitərəfli formatda müntəzəm işləyirik.

Heydər Əliyevin xatirəsinə göstərilən yüksək hörmətə görə təşəkkür etmək istərdim. Biz bunu yüksək dəyərləndiririk, Azərbaycanda bütün bunları çox yaxşı bilirlər. Sizin qeyd etdiyiniz kimi, yubiley tədbirləri həm Moskvada, həm dövlət hakimiyyət təsisatlarında, həm də regionlarda keçirilib. Onu deməliyəm ki, Heydər Əliyev və Siz, Vladimir Vladimiroviç, Rusiya ilə Azərbaycan arasında münasibətlərin hazırkı səviyyəsinin əsasını qoymusunuz. Məhz Sizin 2001-ci ildə Azərbaycana səfərinizdən sonra münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəldi və biz bu gün artıq bu münasibətləri müttəfiqlik qismində təkcə de-fakto deyil, həm də de-yure səciyyələndiririk. Siz qeyd etdiyiniz kimi, ötən ilin əvvəlində biz Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzaladıq və icra edirik. Bu, bizim münasibətlərimizin ruhunu və xarakterini, ölkələrimizin daha sıx qarşılıqlı əlaqələrə səylərini əks etdirən mühüm siyasi sənəddir.

Əlbəttə, biz bu gün regional məsələlərdən də danışacağıq. Fürsətdən istifadə edərək, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması işində səylərinə görə Rusiya tərəfinə minnətdarlığımızı bildirmək istərdim. Biz bu səyləri çox yüksək dəyərləndiririk. Bu gün keçiriləcək üçtərəfli görüşdə Sizin iştirakınız da Azərbaycan və Ermənistanın nəhayət, sülh razılaşmasına gəlməsinə Rusiya Federasiyasının necə böyük əhəmiyyət verdiyini göstərir. Fikrimcə, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması barədə Ermənistan rəhbərliyinin bu yaxınlardakı bəyanatlarından, eləcə də Azərbaycan Respublikasının sahəsini konkret rəqəmlərlə göstərməklə Azərbaycanın ərazi bütövlüyünün tanınmasından sonra sülh sazişinin digər maddələrinin razılaşdırılması məsələsi daha asan olacaq. Çünki bu, başlıca amil idi ki, biz razılığa gələ bilmirdik.

Vladimir Vladimiroviç, bir daha ümid edirəm ki, bu gün biz üçtərəfli formatda da iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində daha bir addım atacağıq.

İkitərəfli gündəliyə gəlincə, o, kifayət qədər genişdir. Onu ətraflı nəzərdən keçirəcəyik. Dəvətə görə bir daha sağ olun.

# Üçtərəfli Zirvə görüşü

*Əvvəli 1-ci səh.*



Bu vaxt ərzində bir çox hadisələr baş verib, mən onların hər biri üzərində dayanmayacağam, detallara varmayacağam. Zənnimcə, hələ də ümumilikdə kifayət qədər çətinliklərin və problemlərin olmasına baxmayaraq, hər halda vəziyyət nizamlanma istiqamətində inkişaf edir. Bu istiqamətlərdən biri nəqliyyat kommunikasiyaları ilə bağlı aparılan işdir. Bax, indi biz üzbəüz üçlükdə kifayət qədər ətraflı şəkildə bu barədə danışdıq və hələ də tənzimlənməmiş məsələlər qalır. Lakin zənnimcə, biz bu barədə həm Azərbaycan tərəfdən, həm də Ermənistan tərəfdən olan həmkarlarla danışdıq. Bu məsələlər sırf texniki xarakter daşıyır.

Biz bu mövzunu ətraflı müzakirə etdik. Məsələ terminologiyadadır. Əlbəttə, bu terminlərin arxasında reallıqların və hadisələrin dəqiq qavranılması dayanır. Onlar müvafiq sənədlərin imzalanmasından sonra gəlir. Lakin fikrimcə, bizim hər üçümüzün nöqteyi-nəzərindən, - mən özümü, Ermənistanın baş nazirini və Azərbaycanın Prezidentini nəzərdə tuturam, - bunlar aradan qaldırılması mümkün olan maneələrdir. Əslində, bunlar sırf texniki məsələlərdir. Ona görə də biz qərara aldıq ki, yaxın vaxtlarda, bir həftədən sonra, - indi həmkarlarımdan bu tarixi razılaşdırmağı xahiş edirəm, - Rusiya, Azərbaycan və Ermənistan Baş nazirlərinin müavinləri görüşəcəklər. Onlar belə demək mümkünsə, hələ tənzimlənməmiş məsələləri həll edəcəklər. Mənə elə gəlir ki, bu, yaxşı razılaşmadır və indiyədək həll olunmamış məsələlərin çözülməsinə ümid yaradır.

Vaxta gəldikdə, biz bir həftədən sonra görüş barədə razılığa gəldik. Bu gün cümə axşamıdır. Ermənistan, yaxud Azərbaycan nümayəndə heyətlərinin hər hansı təklifi varmı? Çünki həmkarlar bu barədə öz aralarında razılaşmalıdırlar. Bir həftədən sonra normaldır?

**Baş nazir Nikol Paşinyan:** Bəli.

**Prezident Vladimir Putin:** İlham Heydər oğlu?

**Prezident İlham Əliyev:** Bəli.

**Prezident Vladimir Putin:** Mətbuat nümayəndələri çox sağ olsunlar. Biz bir az qapalı rejimdə işləyəcəyik.

## Səfər başa çatdı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri mayın 25-də başa çatıb.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Gününün qeyd olunması mənə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi, rifah və əmin-amanlıq arzularımı çatdırmaq imkanı verir.

Dövlətlərimiz arasındakı sıx və möhkəm münasibətlər strateji maraqlara söykənir. Bu baxımdan ölkəniz Cənubi Qafqaz regionunda Rumıniya üçün etibarlı tərəfdaşdır. Bu yaxınlarda Bakıya səfərim dövlətlərimiz arasında əməkdaşlığın möhkəmləndirilməsi üçün konkret addımlarla bağlı razılığa gəlmək baxımından çox gözəl fürsət oldu. Səmimi qarşılanmaya və Zati-alinizlə ətraflı müzakirələrə görə Sizə bir daha minnətdarlığımı bildirirəm.

Əminəm ki, biz həm strateji tərəfdaşlıq çərçivəsində mövcud imkanlardan yararlanmaqla, həm də enerji və nəqliyyat kimi sahələrdə regional layihələri inkişaf etdirməklə inkişaf üçün mövcud potensialı istiqamətləndirə və gücləndirə biləcəyik.

Eyni zamanda Rumıniya Azərbaycan ilə Avropa İttifaqı arasında dialoqun davamlı inkişafına dəstəyini davam etdirəcəkdir.

Cənab Prezident, xahiş edirəm, Sizə olan ən dərin ehtiramımı qəbul edəsiniz.

***Klaus Verner İOHANNİS,***
***Rumıniyanın Prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Azərbaycanın Müstəqillik Günü münasibətilə Serbiya xalqı adından və şəxsən öz adımdan Sizi səmimi-qəlbdən təbrik edir, ölkənizə tərəqqi, xalqınıza yüksək rifah diləyirəm.

Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümünü qeyd etdiyimiz ötən il əməkdaşlığın əldə olunmuş səviyyəsi ilə fəxr edirəm. Sizin 2022-ci il noyabrın 23-də Serbiyaya səfəriniz və Serbiya Respublikası ilə Azərbaycan Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandumu imzalamağımız xoş xatirələrlə yaddaşımda qalıb. Həmin il dekabrın 20-21-də Bakıya səfərim və qarşılıqlı əhəmiyyət kəsb edən bütün sahələrdə əməkdaşlığın təkmilləşdirilməsi ilə bağlı aparılan uğurlu müzakirələr Serbiya-Azərbaycan münasibətlərinin davamlı inkişafının sübutudur.

Əminəm ki, strateji səviyyədə olan siyasi dialoqu, həmçinin çoxtərəfli, xüsusilə də iqtisadi sahədə əməkdaşlığımızı birgə səylərimizlə inkişaf etdirməkdə davam edəcəyik. Bunu çoxsaylı iqtisadi layihələr, Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın bu yaxınlarda Belqradda keçirilmiş 7-ci iclası da bir daha sübut etdi.

Cari il Sizin Serbiyaya gözlənilən səfəriniz və bu səfər çərçivəsində Serbiya və Azərbaycan arasında qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığın gələcək inkişafına əlavə imkanlar yaradacaq Strateji Tərəfdaşlıq Şurasının ilk iclasının keçirilməsinin planlaşdırılması məni çox sevindirir.

Hörmətli cənab Prezident, fürsətdən istifadə edərək Sizi və ölkənizin bütün vətəndaşlarını Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin bu il qeyd etdiyiniz 100 illik yubileyi münasibətilə təbrik edirəm. Biz Heydər Əliyevi siyasi müdrikliyi və strateji yanaşması ilə müasir müstəqil və uğurlu Azərbaycanın əsasını qoyan görkəmli və uzaqgörən dövlət xadimi kimi xatırlayırıq. 2022-ci ilin dekabrında yenidən ziyarət etdiyim möhtəşəm Heydər Əliyev Mərkəzi məni çox təsirləndirdi. İcazə verin, bir daha xatırladım ki, Heydər Əliyevin abidəsi Belqradın ən gözəl parklarından biri olan Taşmaydan parkında da ucaldılıb.

Fürsətdən istifadə edərək Serbiyanın suverenliyinə və ərazi bütövlüyünə ölkənizin verdiyi prinsipial dəstəyə və bu yaxınlarda Kosovonun Avropa Şurasına qəbulu üçün prosedurların başlanılması haqqında qərarın əleyhinə verdiyiniz səslə beynəlxalq hüquqa bir daha göstərmiş olduğunuz bağlılığınıza görə dərin təşəkkürümü bildirmək istərdim. Serbiya bunu qarşılıqlı anlaşmaya və hörmətə əsaslanan səmimi, daimi dostluğun təcəssümü kimi dəyərləndirdiyi üçün bu addımı heç vaxt unutmayacaq. Əmin olun ki, Serbiya Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəkləməkdə davam edəcək.

Möhtərəm cənab Prezident, Sizə bir daha dərin ehtiramımı ifadə edirəm.

*Hörmətlə,*

***Aleksandar VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Milli bayram - Müstəqillik Günü münasibətilə Sizi və bütün azərbaycanlıları Belarus xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Siz bu bayramı dahi və müdrik siyasətçi, müasir Azərbaycanın banisi və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinin geniş qeyd edildiyi bir vaxtda qarşılayırsınız.

Ölkənizin dinamik inkişaf edən iqtisadiyyatı, regionda açar rolu, beynəlxalq aləmdə artan nüfuzu Sizin atanızın əsasını qoyduğu və tərəfinizdən uğurla davam etdirilən, güclü, suveren dövlətin qurulmasına yönəlmiş yaradıcı kursun düzgünlüyünün danılmaz sübutudur.

Qəti əminəm ki, Minsk və Bakının qarşılıqlı maraqlara və ənənəvi etibarlı dostluq münasibətlərinə əsaslanan strateji tərəfdaşlığı bundan sonra da möhkəmlənərək yeni forma və istiqamətlər üzrə zənginləşəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə və ailənizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün azərbaycanlıları səmimi-qəlbdən təbrik edirəm.

Sizin müdrik rəhbərliyiniz sayəsində son illər Azərbaycan sosial-iqtisadi islahatlarda, eləcə də beynəlxalq aləmdə əhəmiyyətli uğurlar əldə edib.

Məmnunluqla qeyd edirəm ki, dostluğun və mədəni-dil oxşarlığının dərin tarixi kökləri Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlərin indiki xarakterini qabaqcadan müəyyənləşdirib.

Ölkələrimiz arasında diplomatik münasibətlərin otuzillik tarixi strateji tərəfdaşlıq əlaqələrinin qurulması ilə əlamətdardır. Bu münasibətlər bizim birgə səylərimiz sayəsində xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, firavanlıq, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Fürsətdən istifadə edərək Azərbaycan ilə Gürcüstan arasında tərəfdaşlığın möhkəmlənməsinə şəxsi dəstəyinizə və töhfənizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bu il xüsusi əhəmiyyət kəsb edir, çünki Azərbaycan xalqı ölkənin tərəqqisi və inkişafında mühüm xidmətləri olan uzaqgörən lider Heydər Əliyevin 100 illiyini qeyd edir.

Əziz dost, əməkdaşlığımızın dövlətlərimiz, xalqlarımız üçün daha böyük uğurlar gətirəcəyini səbirsizliklə gözləyirik.

Sizə sülh, tərəqqi və uğurlarla zəngin gələcək arzulayıram. Qoy Azərbaycan bundan sonra da çiçəklənsin və inkişaf etsin!

*Hörmətlə,*

***İrakli QARİBAŞVİLİ,***
***Gürcüstanın Baş naziri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Fələstin Dövləti və xalqı adından, şəxsən öz adımdan Sizə, Sizin şəxsinizdə hökumətinizə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi və arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Allahdan Sizə möhkəm cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər diləyir, ölkənizə və xalqınıza daha böyük tərəqqi və firavanlıq, ölkələrimiz arasında fəxr etdiyimiz əlaqələrin daha da inkişafını arzulayıram.

Xahiş edirəm, ən xoş arzularımı qəbul edin.

*Hörmətlə,*

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti,***
***Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Filippin xalqı və hökuməti adından Sizə ən səmimi təbriklərimi çatdırıram.

Son üç onillikdə Filippin ilə Azərbaycan arasında səmimi münasibətlər mövcuddur. İnanıram ki, dövlətlərimiz dostluq əlaqələrini gələcək illərdə də davam etdirəcək.

Filippin iqlim dəyişikliyi, enerji təhlükəsizliyi və pandemiyadan sonrakı bərpa kimi ümumi narahatlıq doğuran qlobal çağırışların həllində Azərbaycanla işləməyə hazırdır.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Ferdinand Romualdez MARKOS,***
***Filippin Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Tailand Krallığının hökuməti və xalqı adından Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Otuz ildən çoxdur ki, Tailand və Azərbaycan arasında dostluq münasibətləri mövcuddur. Əminəm ki, əlaqələrimiz ölkələrimizin və xalqlarımızın rifahı naminə qarşılıqlı maraq doğuran bütün sahələrdə bundan sonra da möhkəmlənəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***General Prayut ÇAN-O-ÇA,***
***Tailand Krallığının Baş naziri***

❖ ❖ ❖

Çox hörmətli cənab Prezident!

Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun rəhbərliyi və çoxmillətli kollektivi Sizi Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik edir.

Cənab Prezident, fürsətdən istifadə edərək Azərbaycanın elmi mərkəzləri və universitetlərinin bizim beynəlxalq hökumətlərarası təşkilatımızla əməkdaşlığına verdiyiniz dəstəyə görə Azərbaycan hökumətinə və şəxsən Sizə təşəkkür etmək istərdim.

Bizim müasir tərəfdaşlığımız institutun yaradılması üçün əsas olan qarşılıqlı beynəlxalq elmi-texniki fəaliyyətin möhkəm təməllərinə söykənir və hər il daha böyük əhəmiyyət kəsb edir. Bu, özünü institutun tədqiqat və təhsil proqramlarının həyata keçirilməsində əyani şəkildə göstərir.

Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun mehriban ailəsinin bir hissəsi olaraq, biz yeni elmi istiqamətlərin açılması və bütün bəşəriyyət naminə texnoloji inkişaf üçün müxtəlif ölkələrin alimlərini bir araya gətiririk.

Azərbaycanın fundamental və tətbiqi tədqiqatlar sahəsində beynəlxalq əməkdaşlığın dəstəklənməsinə və inkişafına verdiyi töhfəni yüksək qiymətləndiririk. Ümidvaram ki, bizim birgə səylərimiz gələcəkdə də qarşılıqlı faydalı elmi tərəfdaşlığa töhfə verəcək.

Çox hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı və yeni-yeni uğurlar, Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzu edirəm.

*Dərin hörmətlə,*

***Qriqori TRUBNİKOV,***
***Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru,***
***Rusiya Elmlər Akademiyasının akademiki***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

28 May - Müstəqillik Günü münasibətilə Sizi Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu adından, eləcə də öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Ötən illər ərzində Azərbaycan dövlətçiliyi şərəfli yol qət edərək beynəlxalq aləmdə öz sözünü deyən güclü dövlətə çevrilmişdir. Sizin uğurlu daxili və xarici siyasətiniz sayəsində dövlətçilik ənənələri möhkəmlənmiş, iqtisadiyyat inkişaf etmiş, mədəniyyət zənginləşmişdir. Müstəqil Azərbaycan Respublikası bu gün hər bir Azərbaycan vətəndaşı üçün əsl qürur mənbəyidir.

2023-cü il Azərbaycan üçün ən əlamətdar illərdən biridir. Bu il Azərbaycanın və türk dünyasının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə Vətəninə, xalqına bağlı olan dünyamiqyaslı siyasi xadim, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi qeyd edilir. Heydər Əliyevin Azərbaycana qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı və dirçəliş erası başladı.

Həmçinin Azərbaycanın incisi Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunmuşdur. Sizin yenilməz iradəniz, siyasi cəsarətiniz, hərbi səriştəniz sayəsində qəhrəman Azərbaycan Ordusu otuzillik işğala son qoyaraq bu şanlı və tarixi Zəfər günlərini Azərbaycan və bütün türk xalqlarına yaşatdı.

Zati-alinizin təşəbbüsü ilə yaradılan Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu il ərzində Azərbaycanda və ölkə hüdudlarından kənarda Ulu Öndərin anadan olmasının 100-cü ildönümünə və Qarabağın tacı Şuşaya həsr edilmiş müxtəlif layihələr gerçəkləşdirir.

Bu xüsusda fond tərəfindən Azərbaycanın mədəniyyətinin təbliği, tarixi həqiqətlərinin çatdırılmasına, qarşılıqlı mədəni dialoqa töhfə vermək məqsədilə türk dünyası ölkələrində müxtəlif tədbirlərimiz həyata keçirilib və bu istiqamətdə səylərimizi davam etdiririk.

Bu əlamətdar gün münasibətilə Sizi bir daha təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, Azərbaycanın inkişafı naminə ali dövləti fəaliyyətinizdə davamlı uğurlar, Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Günay ƏFƏNDİYEVA,***
***Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

# İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseynə

Əlahəzrət!

İordaniya Haşimilər Krallığının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İordaniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2023-cü il*

## E.H.Axundovanın 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Elmira Hüseyn qızı Axundova 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2023-cü il*

# Naxçıvanda "Heydər Əliyev və milli dövlətçilik məsələləri" respublika elmi konfrans keçirilib





**"Naxçıvan" Universitetində "Heydər Əliyev və milli dövlətçilik məsələləri" respublika elmi konfrans işə başlayıb.**




AZƏRTAC xəbər verir ki, konfransda ADA Universitetinin rektoru professor Hafiz Paşayev, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov, Mingəçevir Dövlət Universitetinin rektoru dosent Şahin Bayramov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynova və digər tanınmış elm adamları iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ulu Öndərin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb, ehtiramlarını bildiriblər.

Konfransdan sonra Naxçıvan Dövlət Milli Dram Teatrında bədii proqram təqdim olunub.

"Naxçıvan" Universiteti və ADA Universitetinin birgə təşkilatçılığı ilə keçirilən konfrans sabah öz işini bölmə iclasları ilə davam etdirəcək.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mayın 25-də Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Gəncə şəhərindəki Heydər Əliyev Mərkəzində Gəncə şəhəri, Samux və Kəlbəcər rayonlarından olan vətəndaşlarla görüşüb.

Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən görüşdə Gəncə şəhəri, Samux və Kəlbəcər rayon sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən işə qəbul, idxal-ixrac əməliyyatları və digər gömrük məsələləri ilə bağlı olub.

Görüş zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

❖ ❖ ❖

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov mayın 25-də Naftalan şəhərində Naftalan, Goranboy və Xocalı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Vətəndaşlar bölgələrdə qəbulla bağlı göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

# Nazirlər Kabinetində qəzalı binalarla bağlı müşavirə keçirildi



**Mayın 25-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə "Qəzalı və yolverilməz vəziyyətə düşmüş çoxmənzilli yaşayış binalarının 2023-2028-ci illərdə yenilənməsinə və əsaslı təmirinə dair" Dövlət Proqramı layihəsinin müzakirəsinə həsr olunmuş müşavirə keçirilib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə aidiyyəti qurumların rəhbərləri iştirak ediblər.

Müşavirə zamanı proqram layihəsi ətraflı müzakirə edilib, təkliflər nəzərə alınmaqla yekun variantın təqdim edilməsinə dair tapşırıqlar verilib.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 163** QƏRAR **Bakı şəhəri, 24 may 2023-cü il**

### "Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi qaydası"nın təsdiq edilməsi haqqında

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun tətbiqi və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 avqust tarixli 1812 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 164** QƏRAR **Bakı şəhəri, 25 may 2023-cü il**

### İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında

"Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli 194-IIIQD nömrəli Qanunun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

İş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2023-cü ilin 27 və 30 iyun iş günləri ilə müvafiq olaraq 24 və 25 iyun istirahət günlərinin yerləri dəyişdirilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 24 may tarixli 163 nömrəli Qərarı ilə təsdiq edilmişdir

# Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi QAYDASI

**1. Ümumi müddəalar**

1.1. "Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi qaydası" (bundan sonra - Qayda) "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 10-cu maddəsinin üçüncü hissəsinə uyğun olaraq hazırlanmışdır və Milli arxiv fondunun tərkibinə daxil olan arxiv fondu sənədlərinin daimi mühafizə məqsədilə dövlət arxivlərinə təhvil verilməsi qaydasını müəyyən edir.

1.2. Milli arxiv fondunun tərkibinə daxil edilən arxiv sənədləri dövlət və qeyri-dövlət idarə, müəssisə və təşkilatlarında (bundan sonra - təşkilat) yaradılan idarə arxivlərində Qanunun 10-cu maddəsinin ikinci hissəsi ilə müəyyən edilmiş müvəqqəti mühafizə müddətləri başa çatdıqdan sonra daimi dövlət mühafizəsi məqsədilə dövlət arxiv xidməti təşkilatlarına təhvil verilir.

1.3. Dövlət arxiv xidməti təşkilatlarının komplektləşdirmə mənbəyi olmayan qeyri-dövlət idarə, müəssisə və təşkilatlarının və fiziki şəxslərin arxiv sənədləri müvafiq profilə uyğun və ya idarə, müəssisə və təşkilatın olduğu yer, fiziki şəxsin yaşadığı yer üzrə dövlət arxiv xidməti təşkilatı ilə arxiv sənədlərinin mülkiyyətçisi (sahibi) arasında imzalanmış müqavilə əsasında dövlət mühafizəsinə təhvil verilir.

1.4. Milli arxiv fondunun komplektləşdirilməsi mənbələri fəaliyyəti nəticəsində ictimai-siyası, iqtisadi, elmi, sosial-mədəni, tarixi əhəmiyyətli sənədləri yaranan və onları daimi dövlət mühafizəsinə məcburi qaydada təhvil verməli olan təşkilatlar, habelə arxiv sənədlərini müqavilə yolu ilə təhvil verən qeyri-dövlət idarə, müəssisə və təşkilatları və fiziki şəxslərdir.

1.5. Təşkilatın arxiv fondu sənədləri işlərin nomenklaturu tərtib edilərkən, işlər formalaşdırılarkən, sənədlərin işlərə düzgün daxil edilməsi yoxlanılarkən ekspertizadan keçirilir. Arxiv fondu sənədləri daimi mühafizə məqsədilə dövlət arxivlərinə təhvil verilmək üçün hazırlanarkən yenidən ekspertizadan keçirilir, daimi mühafizə olunan sənədlərin və işlərin siyahıları, məhv edilmək üçün ayrılan sənədlərin və işlərin aktları tərtib edilir.

1.6. Qanunun 8-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş orqanların arxiv fondu sənədlərinin daimi mühafizəsi həmin orqanların özləri tərəfindən həyata keçirilir.

**2. Daimi dövlət mühafizəsinə təhvil verilməsi nəzərdə tutulan arxiv fondu sənədlərinin ekspertizasının keçirilməsi**

2.1. Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi üçün hazırlanması təşkilatın mütəxəssislərinin və dövlət arxiv xidməti təşkilatının nümayəndəsinin iştirakı ilə təşkilatda yaradılmış Ekspert Komissiyası tərəfindən sənədlərin dəyərinin ekspertizası aparılmaqla həyata keçirilir. Tərkibində qurumlar olan təşkilatlarda sənədlərin dəyərinin ekspertizasını həyata keçirmək, habelə tabe təşkilatlarda ekspertiza işinə rəhbərlik və metodiki kömək göstərmək məqsədilə daimi fəaliyyət göstərən Mərkəzi Ekspert Komissiyası yaradılır.

2.2. Ekspert komissiyaları arxiv sənədlərinin saxlanılma müddətləri göstərilməklə nümunəvi və sahə siyahılarına əsaslanaraq dövlət arxiv xidməti təşkilatlarına təhvil verilməsi məqsədilə daimi mühafizə olunmalı sənədləri, işləri seçir, onların bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş formaya uyğun olaraq 3 (üç) nüsxədə arxiv siyahılarını tərtib edir.

2.3. Dövlət arxiv xidməti təşkilatının komplektləşdirmə mənbəyi olan təşkilatın fəaliyyəti nəticəsində yaranmış daimi saxlanılma müddətli və işçi heyətə aid işlərin arxiv siyahıları təşkilatın Mərkəzi Ekspert Komissiyasının (Ekspert Komissiyasının) üzvləri tərəfindən imzalandıqdan sonra təsdiq üçün dövlət arxiv xidməti təşkilatının Ekspert Yoxlama Komissiyasına təqdim edilir. Dövlət arxiv xidməti təşkilatının Ekspert Yoxlama Komissiyası 1 (bir) ay müddətində daxil olan arxiv siyahılarına baxaraq, onları qərarla təsdiq edir və ya təqdim olunan arxiv siyahılarında uyğunsuzluq aşkar edildikdə, yenidən işlənilməsi üçün müvafiq təşkilata geri qaytarır.

2.4. Arxiv siyahıları dövlət arxiv xidməti təşkilatının Ekspert Yoxlama Komissiyası tərəfindən qərarla təsdiq edildikdən sonra təşkilatın rəhbəri tərəfindən möhürlə təsdiqlənir. Arxiv siyahılarının 1 (bir) nüsxəsi müvafiq siyahı üzrə sənədlər daimi dövlət mühafizəsinə təhvil verilənədək, onlara nəzarət etmək məqsədilə həmin arxiv siyahılarını təsdiq edən Ekspert Yoxlama Komissiyasının yaradıldığı dövlət arxiv xidməti təşkilatına verilir.

2.5. Hüquqi şəxs ləğv edildikdə, onunləğvi ilə bağlı yaradılmış ləğvetmə komissiyasının və həmin hüquqi şəxsin fəaliyyəti nəticəsində yaranmış arxiv sənədləri dəyərinin ekspertizası keçirilərək Qanuna uyğun olaraq daimi dövlət mühafizəsinə təhvil verilir.

**3. Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi**

3.1. Dövlət arxiv xidməti təşkilatının komplektləşdirmə mənbəyi olan təşkilatların arxiv fondu sənədləri dövlət arxiv xidməti təşkilatının Ekspert Yoxlama Komissiyası tərəfindən təsdiq edilmiş arxiv siyahıları əsasında idarə arxivlərində müvəqqəti mühafizə müddətləri başa çatdıqdan sonra daimi dövlət mühafizəsinə təhvil verilir.

3.2. Fiziki şəxslərin arxiv sənədləri onların şəxsi mülkiyyətidir. Fiziki şəxs vəfat etdikdə onun arxiv sənədləri üzərində mülkiyyət hüququ onun vərəsəsinə, vəfat etmiş fiziki şəxsin vərəsəsi olmadığı halda dövlətə keçir. Fiziki şəxsin mülkiyyətində olan arxiv sənədləri onun özü və ya vərəsəsi tərəfindən müqavilə əsasında həmin fiziki şəxsin yaşayış yeri üzrə dövlət arxiv xidməti təşkilatına daimi mühafizəyə təhvil verilə bilər.

3.3. Dövlət arxiv xidməti təşkilatının komplektləşdirmə mənbəyi olan dövlət və yaxud bələdiyyə mülkiyyətində olan müəssisə və ya təşkilat özəlləşdirildikdə, onun arxiv fondu dövlət mülkiyyətində qalır. Hüquqi şəxs yenidən təşkil edildikdə, onun arxiv sənədləri üzərində mülkiyyət hüququ onun hüquqi varisinə keçir və arxiv sənədləri idarə arxivlərində mühafizə olunma müddətləri başa çatdıqdan sonra daimi dövlət mühafizəsinə təhvil verilir.

3.4. Dövlət orqanı (qurumu) ləğv edildikdə və onun hüquqi varisi olmadıqda, həmin dövlət orqanının (qurumunun) arxiv fondu Qanunla müəyyən olunmuş qaydada dövlət arxiv fonduna təhvil verilir.

3.5. Ölkə ərazisində fəaliyyət göstərən xarici hüquqi şəxsin ləğv edilmiş filial və nümayəndəliyinin arxiv fondu sənədlərinin Milli arxiv fonduna daxil edilən hissəsi onların olduğu yer üzrə dövlət arxiv xidməti təşkilatına müqavilə əsasında mühafizəyə təhvil verilir. Xarici hüquqi şəxsin ləğv edilmiş filial və nümayəndəliyinin arxiv fondu sənədlərinin Milli arxiv fonduna daxil edilən hissəsi onların dəyərinin ekspertizası keçirilməklə müəyyən edilir.

3.6. Dövlət arxiv xidməti təşkilatı ləğv edilmiş hüquqi şəxsin arxiv fondu sənədlərini dövlət mühafizəsinə qəbul etdiyi gün ona Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi tərəfindən müəyyən edilmiş formaya uyğun arayış verir.

3.7. Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi təşkilatın statusu, iyerarxiyası və yurisdiksiyasının ölkə, regional və yerli səviyyədə olması nəzərə alınmaqla həyata keçirilir. Ölkə səviyyəli təşkilatların fəaliyyəti nəticəsində yaranmış arxiv fondu sənədləri profilinə uyğun Azərbaycan Respublikasının dövlət arxivlərinə, regional və yerli səviyyəli təşkilatların fəaliyyəti nəticəsində yaranan arxiv fondu sənədlərinin Milli arxiv fonduna daxil edilən hissəsi müvafiq təşkilatın olduğu yer üzrə dövlət arxivinin filiallarına və sənədləri dəyişən tərkibli rayon (şəhər) dövlət arxivlərinə təhvil verilir. Sənədləri dəyişən tərkibli rayon (şəhər) dövlət arxivlərinə təhvil verilmiş daimi saxlanılma müddətli sənədlər 5 (beş) il müvafiq rayon (şəhər) dövlət arxivlərində mühafizə olunduqdan sonra daimi dövlət mühafizəsi məqsədilə tabe dövlət arxivinin filialına təhvil verilir. Regional və yerli səviyyəli təşkilatların fəaliyyəti nəticəsində yaranan dövlət sirri daşıyan məxfilik qrifi olan məlumat daşıyıcıları yuxarı təşkilatın arxiv fondu sənədlərinin tərkibində profilinə uyğun Azərbaycan Respublikasının dövlət arxivlərinə daimi dövlət mühafizəsinə təhvil verilir.

3.8. Dövlət arxiv xidməti təşkilatının komplektləşdirmə mənbəyi olan təşkilatların idarə arxivlərində müvəqqəti mühafizə müddətləri başa çatmış arxiv sənədləri dövlət arxiv xidməti təşkilatı ilə razılaşdırılmış plan-qrafik əsasında müvafiq illər üzrə tam halda daimi dövlət mühafizəsinə təhvil verilir. Arxiv fondu sənədlərinin dövlət mühafizəsinə təhvil verilməsi müvafiq arxiv siyahısı üzrə hər bir işə baxılmaqla həyata keçirilir. Təhvil zamanı arxiv siyahısının yekun qeydi ilə işlərin faktiki sayı arasında uyğunsuzluq aşkar edildikdə, bu Qaydanın 2 nömrəli əlavəsi ilə müəyyən edilmiş formaya uyğun olaraq tərtib edilmiş arxiv sənədlərinin təhvil-qəbulu aktının, həmçinin arxiv siyahısının müvafiq sütununda aşkar olunmayan işlərin nömrələri qeyd olunur, onların tapılması istiqamətində işlər aparılır. İtirilmiş arxiv sənədləri onların surətləri ilə əvəz edilir.

3.9. Daimi dövlət mühafizəsinə təhvil verilən arxiv fondu sənədlərinin elmi-texniki cəhətdən düzgün işlənilməsi, arxiv mühafizəsi formatına uyğunluğu, fiziki, texniki və sanitar-gigiyenik vəziyyəti, işə daxil edilmiş sənədlərin tərkibi, o cümlədən işin üz qabığının (cildinin) düzgün təsvir edilməsi, vərəqlərin tikilməsi, nömrələnməsi və işdəki vərəqlərin sayının rəqəm və sözlə qeyd olunması, təsdiqedici vərəqin və işi tərtib edən şəxsin imzasının mövcudluğu yoxlanılır. Daimi dövlət mühafizəsinə təhvil verilən arxiv fondu sənədlərinin elmi-texniki cəhətdən işlənilərək qaydaya salınması, təhvil verilməsi zamanı aşkar edilmiş qüsurların aradan qaldırılması mülkiyyətçi təşkilatın vəsaiti hesabına həyata keçirilir.

3.10. Daimi dövlət mühafizəsinə təhvil verilən arxiv fondu sənədlərinin arxiv siyahısının ehtiyat və istifadə olmaqla, 2 (iki) nüsxəsi və arxiv sənədlərinin təhvil-qəbulu barədə aktın 1 (bir) nüsxəsi dövlət arxiv xidməti təşkilatına verilir.

---

"Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi qaydası"na

**1 nömrəli əlavə**

**Arxiv siyahısı**

TƏSDİQ EDİRƏM

______________________
(təşkilat rəhbərinin adı, soyadı)

İmza ________________

Tarix ________________
Fond № _______
Siyahı № _______

Daimi saxlanılan işlər
20___- il üzrə

| Sıra №-si | İşin kargüzarlıq indeksi | Saxlama vahidinin sərlövhəsi | İlk və son tarixlər | Vərəqələrin miqdarı | Qeyd |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **Struktur bölmənin adı** | | | | | |
| | | | | | |

Siyahının bu bölməsinə ____№-dən ___№-dək ______ iş daxil edilmişdir. (rəqəmlə və yazı ilə)

O cümlədən:
Liter nömrələr
__________________________________
Buraxılış nömrələr ________________________
Siyahını tərtib edən şəxs__________________ İmza
_____ (adı, soyadı və vəzifəsi)
Arxiv müdiri (arxivə cavabdeh şəxs) _____________ İmza
_____ (adı, soyadı)

**"TƏSDİQ EDİLİB"**
**Arxiv təşkilatı EYK-nin**
**_____tarixli____ №-li**
**iclas protokolu**

**"RAZILAŞDIRILIB"**
**Təşkilatın MEK (EK)-nin**
**_____tarixli ___ №-li**
**iclas protokolu**

"Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi qaydası"na

2 nömrəli əlavə

**TƏSDİQ EDİRƏM**
______________
(təhvil verən təşkilatın adı)
______________
(rəhbərin vəzifəsi, adı, soyadı, imzası)
Tarix __________ M.Y.

**TƏSDİQ EDİRƏM**
______________
(qəbul edən arxiv təşkilatının adı)
______________
(rəhbərin vəzifəsi, adı, soyadı, imzası)
Tarix __________ M.Y.

**Arxiv sənədlərinin təhvil-qəbulu barədə**
**A K T**

______________ № _____
(tarix)

__________________________________
(təhvil üçün əsas)
__________________________________
(təhvil verən təşkilatın adı)
__________________________________ təhvil verdi
(təhvil verilən fondun adı)
__________________________________
(təhvil alan təşkilatın adı)
həmin fondun sənədlərini və onlara aid elmi-məlumat aparatını qəbul etdi.

| Sıra №-si | Siyahının adı və nömrəsi | Siyahının nüsxələrinin miqdarı | Saxlama vahidlərinin miqdarı | Qeyd |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| | | | | |

Cəmi __________________ saxlama vahidi qəbul edilmişdir.
(rəqəmlə və yazı ilə)
Fonda _______________ nömrəsi verilmişdir.

**Təhvil verdi**
**Vəzifəsi, adı, soyadı______**
__________________
İmza ________
Tarix_________

**Qəbul etdi**
Vəzifəsi, adı, soyadı______________
__________________
İmza _________
Tarix __________

Uçot sənədlərində dəyişiklik edilmişdir __________________
Cavabdeh şəxsin vəzifəsi, adı, soyadı, imzası
__________________________________
Tarix ______________________

# Milli Məclisin Sədri Sahibə Qafarova Serbiya Prezidenti Aleksandar Vuçiç ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Serbiya Respublikasına rəsmi səfəri çərçivəsində mayın 25-də bu ölkənin Prezidenti Aleksandar Vuçiç ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlament nümayəndə heyətini səmimiyyətlə salamlayan Aleksandar Vuçiç dost və strateji tərəfdaş olan ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olmasından məmnunluğunu bildirib. O deyib ki, Azərbaycanla Serbiya arasında müxtəlif sahələri əhatə edən əməkdaşlıq uğurla inkişaf edir.

Serbiya Prezidenti Azərbaycan və Serbiya xalqları arasında dost münasibətlərin olduğunu qeyd edib və bildirib ki, Serbiyada Azərbaycanı yaxşı tanıyırlar. O, ölkəmizdə baş verən prosesləri çox yaxından izlədiyini vurğulayıb, Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı nailiyyətləri yüksək qiymətləndirib. Azərbaycan Prezidenti İlham Əliyevlə görüşlərini məmnunluqla xatırladaraq, bu görüşlər zamanı əldə olunmuş razılaşmaların və imzalanmış sənədlərin ölkələrimiz arasında əlaqələrin daha da dərinləşməsinə mühüm töhfələr verdiyini diqqətə çatdırıb.

İkitərəfli münasibətlərin inkişafında parlamentlərin rolunu qeyd edən Serbiya Prezidenti Milli Məclis Sədrinin bu səfərinin qanunverici orqanlar arasında əməkdaşlığın daha da inkişafına töhfə verəcəyinə inamını ifadə edib.

Milli Məclisin Sədri Sahibə Qafarova göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirərək Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Serbiya Prezidentinə çatdırıb.

Milli Məclisin Sədri xatırladıb ki, keçən il diplomatik münasibətlərin qurulmasının 25 illiyi qeyd edilib. Bu illər ərzində ölkələrimiz arasında əlaqələr davamlı şəkildə inkişaf edib. Spiker Sahibə Qafarova vurğulayıb ki, ali və yüksəksəviyyəli səfərlər münasibətlərin dərinləşməsinə vacib töhfə verib. Xüsusilə Prezident İlham Əliyevin 2022-ci ilin noyabrında Serbiyaya rəsmi, həmçinin Prezident Aleksandar Vuçiçin 2018-ci ilin mayında Azərbaycana rəsmi və 2022-ci ilin dekabrında işgüzar səfərləri zamanı aparılan müzakirələr, imzalanmış sənədlər ölkələrimiz arasında müxtəlif sahələrdə geniş əməkdaşlığın inkişafı baxımından çox mühüm olub.

Görüşdə qeyd olunub ki, beynəlxalq təşkilatlarda, xüsusən də suverenlik və ərazi bütövlüyü məsələlərində ölkələrimiz arasında güclü tərəfdaşlıq və həmrəylik mövcuddur. Azərbaycan ilə Serbiya arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi hər iki ölkənin maraqlarına cavab verir.

Münasibətlərimizin müxtəlif istiqamətləri əhatə etdiyini bildirən Milli Məclisin Sədri deyib ki, enerji sektoru əməkdaşlığın daha da dərinləşdirilməsi üçün böyük potensiala malik olan sahələrdən biridir.

Bu səfərin Azərbaycan Milli Məclisinin Sədri səviyyəsində Serbiyaya ilk rəsmi səfər olduğunu deyən Sahibə Qafarova inamını ifadə edib ki, bu səfər ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcək. Parlamentlərimizin qarşılıqlı fəaliyyətinin Azərbaycan və Serbiya arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri olduğunu deyən Sahibə Qafarova əlavə edib ki, qarşılıqlı səfərlər bu əlaqələrə müsbət təsir göstərir və əməkdaşlığın inkişafına təkan verir.

Görüşdə Milli Məclisin Sədri hazırda regionda mövcud olan vəziyyət barədə də geniş məlumat verib. O xatırladıb ki, Ermənistan 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan ərazilərində bütün infrastrukturu, binaları, o cümlədən tarixi və mədəniyyət abidələrini tamamilə dağıdıb. Bu işğal nəticəsində bir milyon azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşüb. Azərbaycan 2020-ci ildə bu işğala son qoymaqla həm özünün ərazi bütövlüyünü, həm də ədaləti bərpa edib. Spiker qeyd edib ki, bu gün Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı yenidənqurma və bərpa işləri aparır. Sahibə Qafarova deyib ki, hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərimizdə, o cümlədən Qarabağda və Şərqi Zəngəzurda müasir şəhər və kəndlər tikir. Artıq məcburi köçkünlərimizin öz doğma torpaqlarına qayıtmasını nəzərdə tutan "Böyük qayıdış" proqramına start verilib.

Spiker görüşdə diqqətə çatdırıb ki, Ermənistan tərəfindən həyata keçirilmiş kütləvi minalanma yenidənqurma işlərinə ən böyük əngəldir. İlkin hesablamalara görə, işğal dövründə Ermənistan həmin ərazilərə bir milyondan artıq mina basdırıb. 2020-ci ilin noyabr ayında Vətən müharibəsi başa çatdıqdan sonra mina partlaması nəticəsində 300-ə yaxın mülki şəxs və hərbçi həlak olub və yaralanıb.

O, bir daha xatırladıb ki, Azərbaycan işğal qurbanı olmasına baxmayaraq, regionda uzunmüddətli sülhün və sabitliyin təmin olunması üçün səy göstərir və beynəlxalq hüququn 5 prinsipi əsasında Ermənistana sülh sazişi imzalamağı təklif edib.

Serbiya Prezidenti Aleksandar Vuçiç Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirərək onun da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Belqradda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti paytaxt Belqraddakı Taşmaydan parkında Ümummilli Lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələrini ziyarət edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri abidələrin önünə əklil qoyub.

Xatırladaq ki, Ulu Öndər Heydər Əliyevin Taşmaydan parkında ucaldılmış abidəsinin açılışı Prezident İlham Əliyevin iştirakı ilə 2011-ci ildə olub. Dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin abidəsinin paytaxt Belqradın Taşmaydan parkında ucaldılması ölkələrimiz arasındakı əlaqələrin yüksək səviyyədə olmasının göstəricisidir.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarovanın Serbiya Milli Assambleyasının Sədri ilə görüşü

**Milli Məclisin Sədri Sahibə Qafarova Serbiya Respublikasına rəsmi səfəri çərçivəsində mayın 25-də bu ölkənin Milli Assambleyasının Sədri Vladimir Orliçlə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədrini salamlayan Serbiya parlamentinin spikeri bu ayın 16-da Azərbaycana səfəri, Milli Məclisin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirakı və Sahibə Qafarova ilə görüşü barədə təəssüratlarını bölüşüb. O, uzaqgörən siyasətçi və böyük dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş bu tədbirin yüksək səviyyədə təşkili münasibətilə Milli Məclis Sədrini təbrik edib.

Azərbaycan və Serbiya arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdiyini bildirən Milli Assambleyanın Sədri qeyd edib ki, iki ölkənin dövlət başçıları arasında münasibətlər və qarşılıqlı səfərlər əlaqələrin daha da genişlənməsinə imkan verib. O, bu səfərlərin gələcəkdə də davamlı olacağını bildirib və əlavə edib ki, tərəflər arasında əldə olunmuş razılaşmaların həyata keçirilməsi üzərində hər iki tərəfdə ciddi iş aparılır.

Serbiya parlamentinin spikeri qeyd edib ki, ölkələrimiz müxtəlif sahələri əhatə edən əməkdaşlıq münasibətlərinə malikdir. Ölkələrimiz suverenlik və ərazi bütövlüyü məsələlərində həmrəylik nümayiş etdirirlər. Yüksək siyasi dialoq iqtisadi sferada da münasibətlərə təkan verir. Xüsusilə energetika və ekologiya, sərmayə qoyuluşu sahələrində əlaqələrin daha da dərinləşdirilməsi üçün yaxşı imkanlar mövcuddur.

Parlamentlərarası münasibətlərin inkişaf perspektivlərindən danışan Assambleya Sədri, Sahibə Qafarovanın bu səfərinin Serbiyaya Azərbaycan parlamentinin sədri səviyyəsində ilk səfər olduğunu bildirib və qeyd edib ki, bu səfər münasibətlərimizin daha da dərinləşməsinə xidmət edəcək. O qeyd edib ki, səfər çərçivəsində Serbiya Milli Assambleyası ilə Azərbaycan Milli Məclisi arasında imzalanacaq parlamentlərarası anlaşma memorandumu qanunvericilik orqanlarımız arasındakı əlaqələri yeni səviyyəyə qaldıracaq. O, parlamentlərarası əməkdaşlığın inkişafında dostluq qruplarının fəaliyyətinin və qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edib.

Milli Məclisin Sədri Sahibə Qafarova göstərilən qonaqpərvərliyə görə serbiyalı həmkarına təşəkkürünü bildirib, ona mayın 16-da Milli Məclisin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirakına və maraqlı çıxışına görə bir daha minnətdarlığını ifadə edib.

Spiker Sahibə Qafarova qeyd edib ki, Azərbaycan və Serbiya arasında dostluq və strateji tərəfdaşlıq münasibətləri məmnunluq doğurur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Serbiya Azərbaycanın Avropadakı ən yaxın dostlarından biridir. Azərbaycan ilə Serbiyanın dövlət başçıları arasında mövcud olan dostluq münasibətləri ölkələrimiz arasında əlaqələrin sürətli inkişafında önəmli rol oynayır. Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin noyabr ayında Serbiyaya, Serbiya Prezidenti Aleksandar Vuçiçin isə ötən ilin dekabrında ölkəmizə baş tutmuş səfərlərinin uğurlu nəticələri bunu bir daha sübut edir.

Milli Məclisin Sədri bildirib ki, Azərbaycan və Serbiya prinsipial məsələlərdə həm beynəlxalq təşkilatlarda, həm də ikitərəfli əlaqələrdə bir-birini daim qarşılıqlı şəkildə dəstəkləyir, həmrəylik nümayiş etdirirlər.

Sahibə Qafarova qeyd edib ki, Azərbaycan və Serbiya xalqları arasında dostluq əlaqələri dövlətlərarası münasibətlərin inkişafı üçün möhkəm əsasdır. Belqradda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsinin, Novi Sad şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin büstünün, serb xalqının görkəmli nümayəndəsi Nikola Teslanın Bakıda abidəsinin ucaldılması xalqlarımızın bir-birinin dəyərlərinə qarşılıqlı hörmətinin təzahürüdür. O, həmçinin xatırladıb ki, 2023-cü ilin martında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa ilə Novi Pazar şəhərləri arasında qardaşlıq əlaqələrinin yaradılması haqqında memorandum imzalanıb.

Spiker Sahibə Qafarova Serbiya Milli Assambleyası ilə Azərbaycan Milli Məclisi arasında imzalanacaq parlamentlərarası anlaşma memorandumunun da bu sahəyə dəyərli töhfə olacağına inamını bildirib.

Milli Məclisin Sədri qeyd edib ki, ötən dövrdə parlament nümayəndə heyətlərimizin həm ikitərəfli əsasda, həm də beynəlxalq tədbirlərdə iştirakı çərçivəsində qarşılıqlı səfərləri olub. Hər iki ölkənin parlamentlərində fəaliyyət göstərən dostluq qrupları isə qanunverici orqanlarımız arasında körpü rolunu oynayır. Parlamentarilərimiz arasında münasibətlərin daha da gücləndirilməsi üçün dostluq qrupları və parlament komitələri arasında əməkdaşlıq imkanlarından istifadə edilə bilər.

Görüşdə Milli Məclisin Sədri 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonrakı dövrdə regionda mövcud olan vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirdiyi böyükmiqyaslı bərpa və quruculuq işləri barədə də məlumat verib. Sahibə Qafarova deyib ki, Ermənistan 30 il ərzində Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayıb. Spiker diqqətə çatdırıb ki, bəzi ölkələrə münasibətdə BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə saat ərzində icra olunduğu halda, Azərbaycan 30 il dünyada mövcud olan ikili standartlardan əziyyət çəkib, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına son qoyulması, torpaqlarımızın qeyd-şərtsiz işğaldan azad olunması ilə bağlı beynəlxalq qətnamələr icra olunmayıb. 2020-ci ildə Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının qətnamələrini, beynəlxalq hüququn norma və prinsiplərini həyata keçirib, öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edib.

Spiker Sahibə Qafarova deyib ki, hazırda Azərbaycan işğaldan azad etdiyi Qarabağda və Şərqi Zəngəzurda müasir şəhər və kəndlər tikir. Artıq məcburi köçkünlərimizin öz doğma torpaqlarına qayıtmasını nəzərdə tutan "Böyük qayıdış" proqramına start verilib.

Milli Məclisin Sədri xatırladıb ki, Azərbaycan işğal qurbanı olmasına baxmayaraq, regionda uzunmüddətli sülhün və sabitliyin təmin olunması üçün səy göstərir və Ermənistana sülh sazişi imzalamağı təklif edib. Sülh müqaviləsinin imzalanması regionda sülh və sabitliyə gətirib çıxaracaq.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Sonra Milli Məclisin nümayəndə heyəti Serbiya Milli Assambleyasının binası ilə tanış olub. Spiker Sahibə Qafarova burada Xatirə kitabını imzalayıb.

*"Azərbaycan"*

# Azərbaycan və Serbiya parlamentləri arasında anlaşma memorandumu imzalanıb



**Milli Məclisin Sədri Sahibə Qafarovanın Serbiya Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycan və Serbiya parlamentləri arasında anlaşma memorandumu imzalanıb.**

Sənədi Azərbaycan parlamentinin spikeri Sahibə Qafarova və Serbiya Milli Assambleyasının Sədri Vladimir Orliç imzalayıblar. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iki ölkənin parlament rəhbərləri bu memorandumun münasibətlərin daha da genişlənməsinə xidmət edəcəyinə inamlarını ifadə ediblər.

*"Azərbaycan"*

# Bob Bləkmənə Milli Məclisin fəxri medalı təqdim olunub

**Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü, Böyük Britaniya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Bob Bləkmənə Azərbaycan Respublikası Milli Məclisinin fəxri medalı təqdim olunub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Bob Bləkmən Milli Məclisin Sədri Sahibə Qafarovanın 19 may 2023-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında parlamentlərarası əlaqələrin inkişafına və dövlətlərarası münasibətlərin genişləndirilməsi işinə verdiyi töhfələrə görə təltif edilib.

Fəxri medalı Milli Məclisin Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov ölkəmizin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı Fövqəladə və səlahiyyətli səfiri Elin Süleymanovla birlikdə Bob Bləkmənlə İcmalar Palatasının binasında keçirilən görüş zamanı təqdim edib.

Soltan Məmmədov Bob Bləkmənə Milli Məclis rəhbərliyinin salamlarını çatdırıb, Azərbaycanın haqlı mövqeyini daim müdafiə etdiyinə görə ona təşəkkürünü bildirib, parlamentlərarası əlaqələrin inkişafının iki ölkənin maraqlarından irəli gəldiyini qeyd edib.

Bob Bləkmən təltifə görə təşəkkür edib, Azərbaycana bu ilin aprel ayında baş tutmuş səfəri zamanı göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. O, Milli Məclis rəhbərliyi ilə görüşünü yüksək diqqətin, iki ölkə arasında münasibətlərə verilən xüsusi önəmin nümunəsi kimi qiymətləndirdiyini vurğulayıb.

Söhbət zamanı səfir Elin Süleymanov Azərbaycanla Böyük Britaniya arasında əlaqələrin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini qeyd edib. O, parlament üzvlərinin sıx əməkdaşlığının ikitərəfli münasibətlərin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

Görüş zamanı hər iki ölkə parlamentinin dostluq qrupları arasında əməkdaşlığa dair məsələlər müzakirə olunub.

Xatırladaq ki, Bob Bləkmən Britaniya parlamentində mütəmadi olaraq Azərbaycanı dəstəkləyən çıxışlar edib, ölkəmizdə çoxsaylı səfərlərdə olub. 2021-ci ildə Bob Bləkmənin rəhbərlik etdiyi nümayəndə heyəti işğaldan azad olunmuş Şuşa şəhərində və Füzuli rayonunda, 2023-cü ildə Ağdam rayonunda olub. O, dəfələrlə Ermənistanın işğalçılıq siyasətini qınayan bəyanatlarla çıxış edib.

*"Azərbaycan"*



# Regionun qüdrətli hərbi gücü

## Azərbaycanın maliyyə imkanları ordumuzun döyüş qabiliyyətini ən müasir standartlara uyğunlaşdırmağa tam imkan verir

**Ulu Öndər Heydər Əliyevin dövlət quruculuğunun ən şərəfli səhifələrindən biri ordumuzun yaradılmasıdır. Bünövrəsi düzgün qoyulan bu ordu Prezident İlham Əliyev tərəfindən daha da gücləndirildi, Silahlı Qüvvələrin hər bir seqmentinin, bütün qoşun növlərinin döyüş imkanları daha da artırıldı. Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi isə Azərbaycanda ordu quruculuğunun peşəkar, müdrik və uzaqgörən yanaşma əsasında həyata keçirilməsinin praktik şəkildə təsdiqi oldu.**

### Tarixi sınaqdan qələbə ilə çıxan ordu

Təbii ki, Vətən müharibəsi Silahlı Qüvvələrimiz üçün bir sınaq, imtahan oldu. Bu sınaq qarşısında dayanan ordumuz tarixi missiyasını layiqincə yerinə yetirdi. Eyni zamanda Vətən müharibəsi, hər bir əməliyyat ordumuzun döyüş qabiliyyətinin artırılması ilə bağlı vəziyyəti yenidən nəzərdən keçirmək, gələcək perspektivləri düzgün dəyərləndirmək imkanı yaratdı. Bu baxımdan təbii ki, Vətən müharibəsinin təhlili ordu quruculuğu istiqamətində yeni çağırışları da meydana çıxardı. Və bu gün Azərbaycanda ordumuzun döyüş imkanlarının artırılması istiqamətində bütün tədbirlər qeyd olunan məsələlər nəzərə alınmaqla həyata keçirilir.

Müharibədən sonra imzalanmış yeni müqavilələr əsasında Azərbaycana ən müasir hərbi texnikalar, silahlar gətirilib. Komando hərbi hissələrinin yaradılması isə göstərdi ki, Vətən müharibəsindən sonra ordu quruculuğu prosesi yeni çağırışlar əsasında sürətlə davam edir. Yüksək döyüş hazırlığına malik bu hərbi hissələrin şəxsi heyəti istənilən hərbi vəzifəni icra etməyə qadirdir. Yeni komando birliklərinin yaradılması ordumuzun gücünü böyük dərəcədə artırdı. O cümlədən işğaldan azad edilmiş ərazilərdə digər yeni hərbi hissələr yaradıldı.

Prezident İlham Əliyevin ötən il Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə qeyd etdiyi kimi, indiki Azərbaycan Ordusu iki il əvvəlki Azərbaycan Ordusundan daha güclüdür: *"Son iki il ərzində Silahlı Qüvvələrimiz daha da güclənib. Həm struktur islahatları, həm yeni birləşmələrin yaradılması, eyni zamanda mövcud olan birləşmələrin sayının artırılması, silah-sursatla təchizat, yeni texnika ilə təchizat ən yüksək səviyyədədir. İndiki Azərbaycan Ordusu iki il bundan əvvəlki Azərbaycan Ordusundan daha güclüdür və bunu hər kəs bilməlidir, Ermənistan və hər kəs!"*

### İlham ƏLİYEV: "Nə qədər lazımdırsa, o qədər də artıracağıq"

2022-ci ildə də ordunun döyüş imkanlarının artırılması istiqamətində islahatlar davam etdirilib. Hərbi quruculuq, bütün qoşun növlərinin texnika və silah-sursatla təchizatının modernləşdirilməsi, xidmət şəraitinin yaxşılaşdırılması üçün hərbi sahəyə ayrılan xərclər artırılıb. İki gün əvvəl Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında 2022-ci ilin dövlət büdcəsinin icrasının müzakirəsi zamanı bu məsələyə də toxunuldu. İclasda qeyd olunduğu kimi, ölkənin müdafiə potensialının gücləndirilməsi və Silahlı Qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması məqsədilə dövlət büdcəsində nəzərdə tutulmuş dövlət əsaslı vəsait qoyuluşu xərclərindən, ehtiyat fondlarından və digər ehtiyat vəsaitlərdən ayrılmış 726,2 milyon manat məbləğində vəsait də nəzərə alınmaqla, 2022-ci ildə müdafiə və milli təhlükəsizlik sahəsinə dövlət büdcəsi xərclərinin 17,5 faizi həcmində və ya 5 milyard 622,5 milyon manat məbləğində vəsait yönəldilib. Bu, 2021-ci illə müqayisədə 15,1 faiz çoxdur.

Bu rəqəmlər göstərir ki, Azərbaycanda ordu quruculuğu ilə bağlı nə qədər lazımdırsa, o qədər də vəsait ayrılır. Onu da qeyd edək ki, dövlət büdcəsinə edilmiş dəyişikliklərdən sonra hərbi xərclər bir qədər də artırılmışdır. Bu barədə ötən ilin altı ayının yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyev bildirmişdi ki, bu artım məhz yüksək texnoloji imkanları olan silahların alınmasına xərclənəcək. *"Ən müasir hərbi texnika və silahların alınması üçün bu il dürüstləşmə zamanı hərbi xərclərimiz artıb. Nə qədər lazımdırsa, o qədər də artıracağıq. Çünki biz müharibə nədir, işğal nədir, yaxşı bilirik və təhlükə nədir, onu da yaxşı bilirik. Hər an hazır olmalıyıq ki, öz hüququmuzu istənilən yolla təmin edək"*, - deyə Müzəffər Ali Baş Komandan bildirmişdi.

### Kifayət qədər maliyyə imkanlarımız var

Azərbaycan Silahlı Qüvvələri öz döyüş qabiliyyətinə görə regionda lider olan hərbi gücdür. Qlobal səviyyədə də ordumuz öz gücünə görə qabaqcıllar sırasındadır. Beynəlxalq reytinq təşkilatlarının hesabatları da göstərir ki, Azərbaycan öz hərbi gücünə görə dünyanın bir çox dövlətini qabaqlayır. Təbii ki, bütün bunların səbəbi ordumuzun döyüş qabiliyyətinin artırılması üçün dövrün nəbzini tutmaqla həyata keçirilən tədbirlərdir. Lakin dünya inkişafdadır. Texnoloji inkişafa mütənasib olaraq hərb sənayesi də sürətlə inkişaf edir, müasir döyüşlərin aparılmasına təsir edən yeni hərbi-texniki yeniliklər meydana çıxır. Təbii ki, bütün bunlar Azərbaycan rəhbərliyi tərəfindən diqqətlə izlənilir, ordumuzun döyüş imkanlarının artırılması istiqamətində bütün texnoloji vasitələr nəzərə alınır. Dövlət büdcəsindən ayrılan xərclər isə göstərir ki, Azərbaycan dövlətinin ordunun döyüş qüdrətini ən müasir səviyyəyə uyğunlaşdırmaq üçün kifayət qədər maliyyə imkanları var.

2023-cü ilin dövlət büdcəsində də respublikamızın müdafiə qabiliyyətinin daha da gücləndirilməsi xüsusi diqqət mərkəzində saxlanılıb. Rəqəmlər təsdiq edir ki, bu il ərzində Silahlı Qüvvələrin döyüş hazırlığının və peşəkarlığının yüksəldilməsi, ordunun maddi-texniki təchizatının müasirləşdirilməsi, hərbçilərin sosial təminatının və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində kompleks tədbir və layihələrin icrası sürətlə davam etdiriləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Moskva görüşündən gözləntilər nədir?

**Ötən gün Moskvada Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Hayastanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib. Görüş zamanı Azərbaycan-Hayastan münasibətlərinin normallaşması ilə bağlı bir sıra məsələlər müzakirə edilib. Azərbaycan tərəfi bütün platformalarda olduğu kimi, Moskvada da sülhün əldə olunmasında maraqlı olduğunu bir daha bəyan edib. Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Deputatların sözlərinə görə, bu görüş Azərbaycanla Hayastan arasında danışıqlar prosesinin məntiqi davamıdır.**





### Rusiyanın təşəbbüsü ələ keçirmək istəyi təbiidir

Milli Məclisin deputatı Arzu Nağıyev deyib ki, Moskvada keçirilən üçtərəfli görüş də sübut edir ki, Rusiya Azərbaycanla Hayastan arasında sülh müqaviləsinin imzalanmasının bu və ya digər şəkildə iştirakçısı olmağa çalışır: "Geosiyasi vəziyyət də Rusiyadan bunu tələb edir. Müşahidələr göstərir ki, rəsmi Moskva proseslərdə iştirakçı olmaq üçün əlindən gələni edir. Bu istiqamətdə addımlar atıldığının mütəmadi şahidi oluruq. Lakin istənilən halda sülh müqaviləsinin imzalanması əsasən iki dövlətdən - Azərbaycan və Hayastandan asılıdır. Digərlərinin, istər vasitəçilərin, istərsə də iştirakçıların danışıqlar prosesində iştirakının fərqi yoxdur, onların regionda öz siyasi-iqtisadi və hərbi maraqları var".

Deputat qeyd edib ki, Rusiyanın Azərbaycan-Hayastan danışıqlarında təşəbbüsü ələ keçirmək istəyi təbiidir. Çünki bu gün məhz Rusiya-Ukrayna müharibəsinə görə tətbiq edilən sanksiyalar və digər qadağalar Rusiyanın alternativ logistik daşınmaları üçün yollar araşdırmasını zəruri edir. Bu yol da məhz Cənubi Qafqazdan, əsasən də Azərbaycandan keçir.

Arzu Nağıyev bildirib ki, Moskva görüşünün əhəmiyyəti böyükdür: "Bu görüşdən öncə Azərbaycan və Hayastan xarici işlər nazirlərinin Moskva görüşündə Vaşinqtonda razılaşdırılmamış müddəalara bir daha baxılıb. Baş verən son hadisələrlə bağlı vacib məsələlər, eləcə də Paşinyanın açıqlamaları müzakirə edilib. Yəni bir növ liderlərin görüşünə qədər zəmin hazırlanıb. Əsas odur ki, Azərbaycanın ərazi bütövlüyü Hayastan tərəfindən tanınıb. Açıq qalan digər məsələlər də danışıqlar prosesində həllini tapmalıdır".

### Bu görüş münasibətlərin normallaşmasında faydalı ola bilər

Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, Moskvada mayın 25-də baş tutmuş üçtərəfli görüş münasibətlərin normallaşması baxımından kifayət qədər vacibdir: "Vaşinqtondakı görüşdən sonra tərəflər bir sıra vacib məsələlərdə razılığa gəldiklərini praktiki olaraq bəyan ediblər. Belə bir vaxtda ölkə liderlərinin yenidən Moskvada görüşməsi kifayət qədər ciddi irəliləyişlərin əldə olunmasına səbəb ola bilər. Moskva görüşü Azərbaycanla Hayastan arasında sülh müqaviləsinin imzalanması ilə bağlı danışıqlara töhfə verəcək. Bu danışıqlar ölkə liderlərinin iyunun 1-nə planlaşdırılan Kişinyov görüşü üçün də əhəmiyyətli olacaq".

Deputatın sözlərinə görə, Azərbaycan regionda sülhün formalaşmasına dəstək verən dövlətdir: "Biz sülhün əldə olunmasında maraqlı olduğumuzu bütün platformalarda sübut edirik. Prezident ATƏT-in Parlament Assambleyasının sədri ilə görüşdə də bildirdi ki, Azərbaycan Hayastan və Gürcüstanla birlikdə Cənubi Qafqaz əməkdaşlıq modelinin qurulmasını təklif edən, sülh müqaviləsinin bağlanması ilə bağlı təklifləri ilk təqdim edən dövlətdir. Yəni Azərbaycan tərəfi sülhün əldə edilməsində maraqlıdır. Bunun nəticəsidir ki, bütün danışıqlarda olduğu kimi, Moskva görüşündə də Azərbaycan sülh müqaviləsinin qısa vaxtda imzalanması üçün əlindən gələni edir. Fikrimcə, Moskva görüşü Azərbaycan-Hayastan münasibətlərinin normallaşmasında faydalı ola bilər".

Vüqar Bayramov onu da qeyd edib ki, Rusiyanın Azərbaycanla Hayastan arasında vasitəçilikdə maraqlı olması təbiidir: "Nəzərə almaq lazımdır ki, Rusiya Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biridir, iki ölkə arasındakı ticarət dövriyyəsi illik 3 milyard dollardan çoxdur. Rusiya həmçinin ölkəmizin qeyri-neft ixracında ən böyük ticarət tərəfdaşlarındandır, qeyri-neft ixracının üçdəbir hissəsi Rusiya bazarına yönəldilib. Yəni bir sıra siyasi-iqtisadi məsələlər danışıqlarda vacib əhəmiyyət kəsb edir".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Ağdamda minatəmizləmə fəaliyyəti ilə bağlı II Beynəlxalq Konfrans keçirilib

**Mayın 25-də Ağdamda "Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol" mövzusunda II Beynəlxalq Humanitar Minatəmizləmə Konfransı keçirilib.**







AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Azərbaycana həsr edilmiş bir ömür" adlı film nümayiş etdirilib.

Konfrans mina partlayışı nəticəsində zərərçəkmiş şəxsin və minaaxtaranın müraciəti ilə başlayıb.

Tədbirdə açılış nitqi ilə çıxış edən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısının tapşırıqlarına uyğun olaraq azad olunmuş ərazilərin bərpası və yenidən qurulması, dayanıqlı məskunlaşmanın təmin edilməsi istiqamətində aparılan işlər barədə məlumat verib. O, azad edilmiş ərazilərin bərpasında Azərbaycanın üzləşdiyi ən mühüm problemlərdən birinin mina və digər partlayıcı maddələr olduğunu qeyd edib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov bildirib ki, keçirilən konfrans mina təhlükəsi ilə mübarizə istiqamətində qlobal həmrəylik nümayiş etdirərək yeni tərəfdaşlıqlar qurmaq və minasız dünyaya yol açacaq konkret fəaliyyət planları hazırlamaq üçün bir imkan yaradır. O, eyni zamanda humanitar minatəmizləmənin Davamlı İnkişaf Məqsədləri üçün böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva çıxışında Azərbaycan da daxil olmaqla, minadan əziyyət çəkən ölkələr üçün ərazilərin minalardan təmizlənməsinin dayanıqlı inkişaf və sülhə nail olmaq üçün ilkin şərt olduğunu söyləyib. O qeyd edib ki, 2020-ci il münaqişəsindən sonra Birləşmiş Millətlər Təşkilatı (BMT) Azərbaycan ərazilərinin minalardan təmizlənməsinə yardım məqsədilə 11 milyon dollar ayırıb.

Ağdamda keçirilən konfransın ilk sessiyasında münaqişədən zərər çəkmiş bölgələrdə infrastrukturun təhlükəsiz bərpası, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına təhlükəsiz qayıtması, regionda davamlı sülhün bərqərar olması, habelə investisiya proqramlarının həyata keçirilməsi üçün humanitar minatəmizləmə fəaliyyətinin əhəmiyyəti və Dayanıqlı İnkişaf Məqsədləri ilə birbaşa bağlılığı ətrafında müzakirələr aparılıb.

Konfrans çərçivəsində, həmçinin Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığını, xidməti fəaliyyətini əks etdirən sərgi təşkil olunub.

Cari il aprelin 28-də Tərtərin Tapqaraqoyunlu istiqamətində ərazilərin dronlar vasitəsilə tədqiqatını həyata keçirən subpodratçı təşkilatın əməkdaşlarının minaya düşərək həyatlarını itirdikləri nəqliyyat vasitəsi də nümayiş olunub.

Səfər çərçivəsində Ağdamda qonaqlar Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin Qərargahında bərpa-quruculuq planları ilə tanış olub, eləcə də mina partlayışları nəticəsində zərərçəkmiş amputant futbolçuların oyununu izləyiblər.

Nümayəndə heyəti həmçinin ANAMA-nın fəaliyyət göstərdiyi minatəmizləmə sahəsinə səfər edib. Qonaqlara icra olunan humanitar minatəmizləmə əməliyyatları haqda məlumat verilib, minaların partlayış yolu ilə zərərsizləşdirilməsi nümayiş etdirilib.

Qeyd edək ki, ANAMA və BMT-nin birgə təşkilatçılığı ilə reallaşan konfransın əsas məqsədi ölkəmizin üzləşdiyi mina probleminin miqyası və törətdiyi fəsadları beynəlxalq ictimaiyyətin və mina təhlükəsi ilə mübarizədə maraqlı olan tərəflərin diqqətinə çatdırmaqdır. Bundan başqa, problemin qlobal xarakter daşıdığını nəzərə alaraq, konfrans humanitar minatəmizləmə üzrə milli və qlobal Dayanıqlı İnkişaf Məqsədinin təqdim edilməsini, bu istiqamətdə birgə tərəfdaşlıq və dəstəyin gücləndirilməsini hədəfləyir.

Konfransda 51 ölkəni təmsil edən 160-a yaxın rəsmi şəxs - sabiq dövlət və hökumət başçıları, bir sıra ölkələrin parlament üzvləri, BMT baş ofisinin rəhbər heyəti, nüfuzlu beynəlxalq təşkilatların, minatəmizləmə sahəsində fəaliyyət göstərən qurumların, eləcə də Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələri iştirak ediblər.

Konfransın ikinci günü mayın 26-da Bakıda keçiriləcək.

Xatırladaq ki, konfrans ötən ilin 30 mart - 1 aprel tarixlərində "Humanitar Minatəmizləmə və Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda keçirilmiş beynəlxalq konfransın davamıdır.

# İdarələrarası Mərkəzin Enerji təminatı məsələləri üzrə İşçi Qrupunun növbəti iclası Şuşada keçirilib

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Enerji təminatı məsələləri İşçi Qrupunun növbəti iclası mayın 25-də Şuşada keçirilib.**



AZƏRTAC xəbər verir ki, İşçi Qrupun rəhbəri, Azərbaycan Respublikasının energetika nazirinin müavini Elnur Soltanov iclasda çıxış edərək son illərdə ölkəmizdə qəbul edilən strateji sənədlərdə energetika sahəsinə dair işğaldan azad olunmuş ərazilərimizi də əhatə edən tapşırıqların icra vəziyyəti barədə məlumat verib. 2022-ci ildə Bakı Enerji Həftəsi çərçivəsində Şuşada "Xalis sıfıra aparan yol: İşğaldan azad edilmiş ərazilərin "yaşıl enerji" potensialının inkişafı" mövzusunda xüsusi sessiyanın keçirildiyini xatırladan nazir müavini bərpaolunan enerjidən istifadənin genişləndirilməsinə özəl investisiyaların cəlbi istiqamətində görülən işlərdən danışıb.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının şöbə müdirinin müavini, İdarələrarası Mərkəzin Katibliyinin rəhbəri Nüsrət Süleymanov çıxış edərək Əlaqələndirmə Qərargahının ötən müddətdə fəaliyyətindən, o cümlədən işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən infrastruktur layihələrindən bəhs edib, onların icrasının İdarələrarası Mərkəz vasitəsilə əlaqələndirilməklə həyata keçirilməsinin əhəmiyyəti və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın tədbirlər planına uyğun olaraq qarşıda duran vəzifələr barədə söz açıb.

İclasda ümumilikdə enerji infrastrukturunun bərpası istiqamətində həyata keçirilən layihələrin icra qrafiki və planlaşdırılan işlər barədə təqdimatlar dinlənilib. Ötən dövrdə işğaldan azad olunmuş ərazilərin qazlaşdırılması layihələri ilə bağlı görülən işlərə dair məlumatlar verilib.

Sonra "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı"na uyğun olaraq, xüsusilə Şuşa rayonu ərazisində görülmüş tədbirlərə dair təqdimat nümayiş etdirilib. "Yaşıl enerji zonası" konsepsiyasının tələblərinə uyğun olaraq həyata keçirilən tikinti-quruculuq və reallaşdırılmış layihələrin icrası ilə bağlı görülən işlər müzakirə edilib.

Sonda İşçi Qrupun ötən iclaslarında verilmiş qərarların icrası nəzərdən keçirilib, müzakirə edilən məsələlərin həlli istiqamətində müvafiq qərarlar qəbul olunub.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Ölkəmiz ilk dəfə Beynəlxalq Nəqliyyat Forumunun prezidenti seçilib

**Beynəlxalq Nəqliyyat Forumunun (BNF) Almaniyanın Leypsiq şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv ölkələrin nəqliyyat nazirləri, yüksəksəviyyəli nümayəndə heyətləri və bir sıra beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə keçirilən "Dayanıqlı iqtisadiyyatları təmin edən nəqliyyat" sammiti çərçivəsində baş tutan Şura iclasında Azərbaycan yekdil səslə 2025-2026-cı illər üçün tarixdə ilk dəfə BNF-nin prezidenti seçilib.**

Tədbirdə iştirak edən Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov çıxış edərək, ölkəmizə yüksək etimad göstərildiyinə görə BNF-yə üzv dövlətlərin nümayəndələrinə dərin təşəkkürünü bildirib. Eləcə də Azərbaycanın, BNF-yə prezidentliyi dövründə görüləcək işlər və prioritetlər barədə məlumat verib.

Rəhman Hümmətov həmçinin Orta dəhliz üzrə tranzit potensialının genişləndirilməsinə mühüm təsir göstərə və regionun nəqliyyat-kommunikasiya xəritəsində strateji dəyişikliklərə səbəb ola biləcək Zəngəzur dəhlizi haqqında danışıb.

Ölkəmizin yüksək nüfuza malik olan beynəlxalq təşkilata prezident seçilməsi bir daha Azərbaycanın regionda və dünyada, xüsusən də nəqliyyat sahəsində etibarlı tərəfdaş olduğunun təzahürüdür.

Beləliklə, ölkəmiz təşkilatın idarəetməsində birbaşa iştirak etmək imkanı qazanıb. Bu isə beynəlxalq müstəvidə ölkə maraqlarının, eləcə də sahəvi fəaliyyətlərə dəstəyin təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Qeyd edək ki, 2022-ci ildə təşkilata müraciət olunaraq ölkəmizin 2025-2026-cı illər üçün Beynəlxalq Nəqliyyat Forumunun prezidentliyinə namizədliyi qeydə alınıb.

Azərbaycan 2025-2026-cı illər üçün BNF-nin prezidenti seçilməsi ilə 2023-2024-cü illər üçün vitse-prezident, 2024-2025-ci illər üçün isə təşkilatın birinci vitse-prezidenti vəzifələrini icra edəcək.

Eyni zamanda ölkəmiz tərəfindən BNF-nin "Beynəlxalq Daşıma Keyfiyyəti Xartiyası"nın tələblərinin daxili qanunvericiliyə inteqrasiyası prosesini başa vurması təşkilata üzv dövlətlər tərəfindən yüksək qiymətləndirilib.

Sammit çərçivəsində nazir müavini Rəhman Hümmətov Beynəlxalq Nəqliyyat Forumunun baş katibi Yunq Ta Kim ilə ikitərəfli görüş keçirib. Görüşdə Azərbaycanın prezidentliyi dövründə görüləcək işlər, eləcə də əsas əməkdaşlıq istiqamətləri müzakirə olunub. Həmçinin bir sıra şirkətlərin rəhbərləri ilə keçirilən görüşlərdə tərəfdaşlıq perspektivlərinə dair müzakirələr aparılıb.

Məlumat üçün bildirək ki, Beynəlxalq Nəqliyyat Forumunun 66 üzvü var. Azərbaycan Respublikası 1998-ci ildən BNF-nin həqiqi üzvüdür.

## 400 min şəxs işlə təmin edilib, 61 min şəxs özünüməşğulluq proqramına cəlb olunub

**Məşğulluq imkanlarının artırılması, qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına yönəldilmiş kompleks tədbirlərin həyata keçirilməsi 2018-2023-cü illərdə ölkəmizdə əmək müqavilələri sayında 34 faiz və ya 400 mindən çox artıma imkan verib.**

Həmin dövrdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən məşğulluğun təminatı, işçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi istiqamətində məqsədyönlü işlər aparılaraq 400 min nəfər işlə təmin edilib.

Nazirliyin yaydığı məlumata görə, özünüməşğulluq proqramına cəlb olunanların illik sayı 14 dəfə artırılaraq 16 mini ötüb, 61 min nəfər üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar yaradılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa dəstək layihəsi"nə isə artıq 8,5 min şəxs cəlb olunub.

Ödənişli ictimai işlər proqramı üzrə 127 min nəfərin, 2020-ci ilin son aylarında icrasına başlanan "İşəgötürənlə birgə işçilərin əməkhaqqının maliyyələşdirilməsi" proqramı üzrə 2,2 min nəfərin işlə təminatı həyata keçirilib.

Agentlik tərəfindən 2018-2023-cü illərdə 16,5 min nəfər üçün əmək bazarının tələblərinə uyğun peşələr üzrə peşə hazırlığı kursları təşkil edilib, 423 min nəfər peşəyönümü xidmətlərə cəlb olunub, 18 min nəfər işsizlikdən sığorta ödənişi ilə təmin olunub.

## Azərbaycanın üç sənaye parkı beynəlxalq reytinq siyahısında ilk onluqdadır

**Son dövrlər Azərbaycan sürətlə sənayeləşir. Həm də bu proses əsasən qeyri-neft sektorunun inkişafına hədəflənir. 2014-cü ilin ölkədə "Sənaye ili" elan edilməsi də bu həqiqətdən xəbər verirdi. Həmin vaxtdan başlayaraq sənayenin inkişafında sistemli və kompleks yanaşma önə çəkildi. İllər öncə isə Prezident İlham Əliyev sənaye parklarının yaradılması üçün konkret tədbirlər görməyə başladı.**




Sumqayıt Kimya Sənaye Parkı Azərbaycanda yaradılan ilk belə obyektdir. Park qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə yaradılıb. Bu sənaye parkı təkcə qeyri-neft məhsulları istehsal etmir, həm də yeni növ məhsullar istehsal edərək davamlı surətdə ixrac potensialını artırır.

Bundan sonra Qaradağ, Mingəçevir, Pirallahı və Balaxanı sənaye parkları yaradıldı. Bu parkların yaradılmasında məqsəd innovativ və yüksək texnologiyalar əsasında sənaye istehsalını inkişaf etdirməkdir. Amma bunun üçün yüksək rəqabət olmalı və məqbul şərait yaradılmalıdır. Qeyri-neft sektoru yüksək inkişaf tendensiyası ilə öndə getməlidir ki, əldə etdiyi uğurlar gözdən qaçmasın, daha çox fayda versin. Həmin sənaye parkları da təməlləri qoyulan vaxtdan yüksək reytinqli və perspektivli olduqlarını sübut etdilər. Səkkiz ilə yaxın fəaliyyət göstərən Qaradağ, Mingəçevir, Pirallahı və Balaxanı sənaye parkları artıq xidmət və istehsal infrastrukturları quraraq xeyli təcrübə topladılar.

Onu da qeyd edək ki, sənaye parkları və məhəllələri, eləcə də yüksək texnologiyalar parkları dünya təcrübəsində də uğurla tətbiq olunur. Öz sənayesini inkişaf etdirmək istəyən hər bir ölkə bu təcrübədən istifadə edir. Xarici ölkələrin təcrübəsi göstərir ki, sənaye parklarının yaradılması ölkə iqtisadiyyatında ixrac və idxalı əvəz edən məhsulların istehsalında, məhsulların rəqabət qabiliyyətinin artırılması və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyət daşıyır. Türkiyə, Almaniya, Polşa, Çin və Cənubi Koreya kimi ölkələr sənaye parkları vasitəsilə öz imkanlarını daha da genişləndirir, əsas vəzifələrin yerinə yetirilməsinə diqqəti artırırlar.

Sənaye parklarının üç əsas mülkiyyət forması var: dövlət sənaye parkı və onu idarə edən orqan, özəl sektorun mülkiyyətində və idarəsində olan sənaye parkı, dövlətlə özəl sektor arasında dövlət-özəl tərəfdaşlıqları və müştərək müəssisələr. Sənaye parklarının coğrafi baxımdan doğru seçilməsi, nəqliyyat-kommunikasiya çıxışlarına yaxın olması kimi məsələlər də önəmlidir. Təcrübə göstərir ki, sənaye parkları mükəmməl rabitə və nəqliyyat infrastrukturuna, elektrik enerjisinə giriş imkanları və işçi qüvvələri ehtiyatı olan ərazilərdə yerləşməli, keyfiyyətli və hərtərəfli infrastruktur imkanlarına malik olmalıdır. Çünki bu amillər investisiya cəlbediciliyini artırır, layihələrin inkişafına təkan verir, eləcə də kiçik və orta biznes müəssisələrinin gəlir əldə etməsi imkanlarını asanlaşdırır.

Bu gün ölkəmizdə Ağdam Sənaye Parkı və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı da daxil olmaqla 7 sənaye parkı və Sabirabad, Masallı, Neftçala, Hacıqabulda yerləşən 4 sənaye məhəlləsi, həmçinin 50-ə yaxın aqropark fəaliyyət göstərir. Çox yaxşı haldır ki, bu sənaye parkları Azərbaycanın neftdən asılılığını azaldır.

O da sirr deyil ki, regionlarda becərilməyən torpaqlar hələ də ciddi problem olaraq qalır. Bu isə həm də büdcəni xeyli gəlirdən məhrum edir. Yaradılan sənaye parkları artıq bu problemi də aradan qaldırmaq yönündə işlər görürlər. Fermer təsərrüfatlarında torpaqların becərilməsində və bol məhsul əldə edilməsində də parkların rolu var. Bu gün fermerlər özlərinin tədarük etdikləri kənd təsərrüfatı məhsullarını parklara təhvil verib gəlir götürürlər. Bol pambıq, üzüm, kartof və s. kimi ənənəvi kənd təsərrüfatı məhsulları əldə etmək aqrar sahənin dinamik inklişafı və ərzaq təhlükəsiziyi deməkdir. Təbii ki, bu irəliləyişə nail olmaqda sənaye parklarının rolu böyükdür. Hələ onu demirik ki, sənaye parkları vasitəsilə "Made in Azerbaijan" brendi təbliğ edilir və müxtəlif çeşidli məhsullar xarici bazarlara çıxarılır.

Ən son fəaliyyətə başlayan Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında qeydiyyata alınmış 24 layihə üzrə 138 milyon manatdan çox investisiyanın qoyulması nəzərdə tutulur. Hazırda sənaye parklarında 18 rezident, 6 qeyri-rezident qeydiyyata alınıb. Bu rezidentlər tərəfindən ümumilikdə Ağdam Sənaye Parkına 117 milyon, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına 21 milyon manat investisiya qoyulacaq ki, onun da sayəsində 1300-ə yaxın iş yerinin yaradılması planlaşdırılır.

Bu yaxınlarda "BIK Ratings" reytinq agentliyinin hazırladığı sənaye parklarının reytinq siyahısı açıqlanıb. İlk onluğa Azərbaycandan İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Mingəçevir Sənaye Parkı (3-cü yer), Pirallahı Sənaye Parkı (7-ci yer) və Qaradağ Sənaye Parkı (10-cu yer) daxil olublar. Əlbəttə, cəmi on ilə yaxın fəaliyyət göstərən sənaye parklarının reytinq cədvəlindəki yerləri ürəkaçandır. Sadəcə bəzi amillər var ki, aradan qaldırılsa, daha böyük uğurlar qazanmaq mümkündür. Bu, infrastruktur təminatı, enerji resurslarına çıxış, tətbiq edilən güzəştlər, sənaye parkına giriş-çıxış kimi imkanlardır. Təbii ki, sənaye parkının ixtisaslaşması, tətbiq edilən qabaqcıl texnologiya və təcrübəni də danmaq olmaz. Bütün bunlar bir kompleks əmələ gətirəndə nəticələr uğur gətirir, reytinq daha yüksək olur.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

## Özəl sektora münasibət

### Sahibkara dövlət dəstəyi davam edir



**Həyata keçirilən məqsədyönlü iqtisadi islahatlar sayəsində ölkəmizdə özəl sektorun iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilməsi yeni fakt deyil.**

Bu gün iqtisadiyyatda özəl sektorun ÜDM-də payı 81, məşğullluqda isə 77 faizə çatıb. Özəl sektorun dövlət dəstək alətlərindən geniş istifadəsi qeyri-neft sektorunda müasir texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələrinin, infrastruktur sahələrinin yaradılmasına, real sektora investisiya qoyuluşlarının sürətlənməsinə əlverişli şərait yaradıb.

Kiçik və orta sahibkarların maliyyə vəsaitlərinə olan tələbatının ödənilməsinin real mənbəyi kimi sahibkarlığa dövlət maliyyə dəstəyi mexanizmi formalaşdırılıb. İş adamları Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli maliyyələşmə mexanizmlərindən istifadə edir. Onlar fondun vəsaitini əsasən qeyri-neft sektorunun inkişafı, innovativ texnologiyaların tətbiqi və ixrac əməliyyatları üzrə investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldirlər.

Sahibkarların investisiya təminatının gücləndirilməsində "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin rolunu xüsusi qeyd etmək lazımdır. Ölkəmizdə qeyri-neft sektorunun inkişafına dəstək vermək, həyata keçirilən vacib layihələrə investisiya qoymaq, rəqabətqabiliyyətli və əlavə dəyər yaradan, xüsusilə ixracyönümlü və ya idxal əvəzləyici layihələrdə iştirak etmək şirkətin əsas məqsədlərindəndir.

Ölkəmizin özəl sektorunda kiçik və orta sahibkarlıq subyektləri mütləq çoxluq təşkil edir. Onların iqtisadiyyatda əlavə dəyərin yaradılmasında, ixrac, məşğulluq və investisyalarda əhəmiyyətli payı var. Kiçik və orta sahibkarlığın ölkə iqtisadiyyatında rolunun və rəqabət qabiliyyətinin yüksəldilməsi, bu sahədə idarəçilik sisteminin müasir tələblərə uyğunlaşdırılması və institusional dəstək mexanizmlərinin formalaşdırılması məqsədilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yaradılıb. Agentlik tərəfindən KOB-ların iqtisadiyyatda rolunun və rəqabət qabiliyyətinin, bilik və bacarıqlarının artırılması, maliyyə resurslarına və satış bazarlarına çıxışının genişləndirilməsi istiqamətində müxtəlif təşviq və dəstək mexanizmləri həyata keçirilir. KOB dostu ofisləri, KOB inkişaf mərkəzləri, KOB-lar üçün təhsil, elm, tədqiqat layihələrinin maliyyələşdirilməsi, "Startap şəhadətnaməsi"nin verilməsi buna misaldır. Sahibkarlıq sahəsində lisenziya tələb olunan fəaliyyət növlərinin əhəmiyyətli dərəcədə azaldılması, sərmayə qoyuluşunun stimullaşdırılması üçün investisiya təşviqi sənədinin verilməsi, satınalmalar sahəsində kotirovka sorğusu prosedurunun tamamilə elektronlaşdırılması və vahid internet portalı - etender.gov.az vasitəsilə həyata keçirilməsi, vergi qanunvericiliyində köklü islahatlar və digər tədbirlər də özəl sektorun işinin gücləndirilməsinə, şəffaflığın və hesabatlılığın artırılmasına, rəqəmsallaşmanın geniş vüsət almasına, rəqabət mühitinin inkişafına xidmət edir.

Məlumdur ki, artıq neçə ildir ölkəmizin ixrac qabiliyyətinin artırılması və xarici investisiyaların cəlb edilməsi kimi məqsədlərin reallaşdırılması üçün Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) fəaliyyət göstərir. Fond ölkə sahibkarlarının ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara yaxından dəstək verir.

Sahibkarlığın inkişafına sistemli və ardıcıl dövlət dəstəyinin daha bir nümunəsi kimi export.az elektron ticarət portalını göstərmək olar. Portal sahibkarlıq subyektlərinə biznes əlaqələrdə etibarlı vasitəçi, dünya biznesinə asan çıxış imkanının yaradılması missiyasını yerinə yetirir.

Sahibkarlıq sahəsində hüquqi bazanın təkmilləşdirilməsi, sahibkarların hüquqlarının müdafiəsi üçün qanunvericilik bazası da təkmilləşdirilir. Belə sənədlərdən biri 2013-cü il iyulun 2-də qəbul olunmuş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" qanundur. Həmin qanunda sahibkarlıq sahəsində aparılan yoxlamaların məqsəd və prinsipləri, təşkili və aparılması qaydaları, yoxlayıcı orqanların və vəzifəli şəxslərin hüquq və vəzifələri, sahibkarların hüquq və maraqlarının müdafiəsi ilə bağlı məsələlər öz əksini tapıb.

*Rüstəm KAMAL, "Azərbaycan"*

## İqtisadiyyat Nazirliyinin fəaliyyət istiqamətləri üzrə vətəndaşlara göstərilən xidmətlərin 193-ü elektronlaşdırılıb

**Nazirlik tərəfindən göstərilən elektron xidmətlərə www.economy.gov.az, www.lisenziya.gov.az, həmçinin nazirliyin strukturuna daxil olan və tabeliyindəki qurumların internet səhifələrində yaradılmış elektron xidmət bölmələri vasitəsilə müraciət etmək mümkündür.**

Dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətinin artırılması operativliyi və vətəndaş məmnunluğunu təmin etmək baxımından böyük önəm kəsb edir. Bu baxımdan İqtisadiyyat Nazirliyi tərəfindən göstərilən xidmətlərin elektronlaşdırılması, səmərəliliyinin artırılması və informasiya sistemləri arasında məlumat mübadiləsinin avtomatlaşdırılması istiqamətində işlər ardıcıl olaraq davam etdirilir. Sahibkarlar elektron xidmətlərdən istifadə edərək zəruri iqtisadi və hüquqi informasiya əldə edə və sahibkarlıq fəaliyyəti ilə bağlı hüququ müəyyən edən bəzi sənədləri (lisenziyalar, mənşə sertifikatı, kommersiya qurumlarına və publik hüquqi şəxslərə münasibətdə qrant müqavilələrinin (qərarlarının) qeydə alınmasına dair bildiriş və s.) almaq üçün müraciət edə bilərlər. Nazirlik tərəfindən göstərilən elektron xidmətlərə www.economy.gov.az, www.lisenziya.gov.az internet səhifələri, həmçinin nazirliyin strukturuna daxil olan və tabeliyindəki qurumların internet səhifələrində yaradılmış elektron xidmət bölmələri vasitəsilə müraciət etmək mümkündür.

Hazırda İqtisadiyyat Nazirliyinin fəaliyyət istiqamətləri üzrə vətəndaşlara, o cümlədən sahibkarlara 259 xidmət göstərilir ki, onların 193-ü elektronlaşdırılıb. Göstərilən xidmətlərdə elektron xidmətlərin xüsusi çəkisi ötən ilin müvafiq dövrü ilə (71.6%) müqayisədə 2.9% yüksələrək 74.5%-ə çatıb.

Elektron xidmətlər bölməsinə müraciət edən şəxslər müvafiq ərizə formalarını sistemdən yükləyə və tələb olunan sənədlərin skan edilmiş surətlərini daxil edə bilərlər. Bu zaman müraciət edən şəxsə təsdiq bildirişi göndərilir. Daxil olan elektron müraciətlərə qanunvericilikdə müəyyən edilmiş qaydada baxılır, tələb olunduğu halda müvafiq dövlət rüsumu və xidmət haqlarının elektron qaydada ödənişi imkanı təmin edilir.

Beləliklə, nazirliyin elektron xidmətləri müasir texnoloji imkanlardan istifadə edilməklə ölkə vətəndaşlarına göstərilən xidmətlərin yüksək keyfiyyətdə və operativ təqdim edilməsinə töhfə verir.

# On ölkənin gömrük orqanlarının nümayəndələri Bakıda bir araya gəliblər



**Mayın 25-də Bakı şəhərində 10 ölkənin gömrük orqanlarının nümayəndələrinin iştirakı ilə "Korrupsiyaya qarşı mübarizə" mövzusunda seminar keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və Ümumdünya Gömrük Təşkilatının birgə layihəsi olan "Qlobal Konteynerlərə Nəzarət Proqramı" çərçivəsində Dövlət Gömrük Komitəsinin (DGK) dəstəyi ilə təşkil edilib.

Seminarda Azərbaycan, Türkiyə, Pakistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Ukrayna və Özbəkistanın gömrük xidmətləri, BMT və ÜGT-nin nümayəndələri iştirak ediblər.

Tədbirin açılışında DGK sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov korrupsiyaya qarşı mübarizənin əhəmiyyətindən, bu istiqamətdə Azərbaycanda görülən işlərdən danışıb. Qeyd olunub ki, DGK-nin fəaliyyət proqramında nəzərdə tutulan əsas prinsiplərdən biri də şəffaflığın təmin olunmasıdır və ölkəmizin gömrük orqanları vətəndaş-məmur təmasının minimuma endirilməsi, dövlət orqanlarının cəmiyyət qarşısında hesabatlılığının təmin olunması istiqamətində bütün zəruri addımları atırlar.

Seminarda çıxış edən BMT və ÜGT təmsilçiləri tədbirin korrupsiyaya qarşı mübarizə istiqamətində müasir və qabaqcıl təcrübələrin paylaşılması, potensialın və məlumat mübadiləsinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıblar.

Tədbir çərçivəsində BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, ÜGT və "Qlobal Konteynerlərə Nəzarət Proqramı"nın mütəxəssisləri tərəfindən hüquq-mühafizə və digər dövlət orqanları sistemində tətbiq edilən strateji mexanizmlər, ÜGT-nin strateji sənədləri və onların həyata keçirilməsi, qabaqcıl təcrübələr barədə təqdimatlar nümayiş etdirilib, qrup tapşırıqları icra olunub və müzakirələr aparılıb.




# Afrika İttifaqının yaradılmasının ildönümü münasibətilə Azərbaycan XİN bəyanat yayıb

**Afrika İttifaqının yaradılmasının 60-cı ildönümü münasibətilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bəyanat yayıb.**

AZƏRTAC bəyanatı təqdim edir. Bu gün, Afrika İttifaqının beynəlxalq təşkilat olaraq təsis edilməsindən 60 il ötür. Bu münasibətlə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Afrika ölkələrinə və Afrika İttifaqının Komissiyasına öz səmimi təbriklərini çatdırır. Ötən 60 il ərzində İttifaq qlobal sülhə, təhlükəsizliyə və davamlı inkişafa Afrika qitəsinin dəyərli töhfələrinin verilməsində önəmli rol oynayıb.

Azərbaycan və Afrika ölkələri arasında əməkdaşlıq davamlı əsasda şaxələnməklə yüksələn xətt üzrə inkişaf edir.

Azərbaycan Respublikasının Qoşulmama Hərəkatına sədrliyi Afrika ölkələri ilə əməkdaşlığa yeni təkan verib. Afrika qitəsinin dekolonizasiya prosesinə mühüm töhfələr vermiş Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Respublikası Afrika qitəsini prioritet region olaraq elan edib və xüsusilə COVID-19 pandemiyası dövründə Afrika ölkələrinin pandemiya ilə mübarizə imkanlarının artırılması və pandemiyadan sonrakı bərpa məsələlərinə xüsusi diqqət ayırıb.

Təsadüfi deyildir ki, 2023-cü il martın 2-də Bakıda keçirilmiş Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Afrika ölkələrində pandemiyadan sonrakı bərpa prosesinə dəstəklə bağlı Qlobal Çağırış və həmin çağırış çərçivəsində ilk donor kimi Afrika ölkələrinə bir milyon ABŞ dolları ianə elan olunub.

Azərbaycan Respublikası Afrika qitəsində diplomatik təmsilçiliyini də tədricən artırmaqdadır. Qitədə mövcud diplomatik nümayəndəliklərə əlavə olaraq, ötən ilin sonunda Keniyada diplomatik nümayəndəlik təsis edilib.

Azərbaycan tərəfi əmindir ki, ortaq dəyər və prinsipləri bölüşdüyü Afrika ölkələri ilə əməkdaşlıq bundan sonra da həm ikitərəfli əsasda, həm də Afrika İttifaqı çərçivəsində daha da inkişaf edəcəkdir.

# Ankara Afrikada sülh, sabitlik və inkişafı təşviq etmək səylərini dəstəkləyir

## Türkiyə XİN Afrika Gününün 60 illiyi münasibətilə qitə ölkələrini təbrik edib

**"Türkiyənin Afrika ölkələri ilə əlaqələrin inkişafına münasibəti Afrika İttifaqının (Aİ) qurucu ölkələrinin prinsipləri ilə tam üst-üstə düşür. Ankara Afrika dövlətləri ilə qarşılıqlı hörmət və bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı faydalı əlaqələrin tərəfdarıdır". Bu barədə Türkiyə Xarici İşlər Nazirliyinin Afrika Gününün 60-cı ildönümü ilə bağlı bəyanatında deyilir.**




Nazirlik bütün qitə xalqlarını Afrikanın sülh, birlik və inkişafı ideallarına əsaslanan Aİ-nin yaranmasının ildönümü münasibətilə təbrik edib.

Türkiyə XİN-dən bildiriblər ki, müasir Afrika dünya səhnəsində öz mövqeyini gücləndirir. Onun əsas oyunçu kimi təsiri və rolu artır. Türkiyə də öz növbəsində Afrikada sülhün, sabitliyin və inkişafın gücləndirilməsi istiqamətində səylərini, habelə Afrika ölkələrinin beynəlxalq platformalarda daha çox təmsil olunmasını təmin etmək üçün təşəbbüslərini dəstəkləyir".

Afrika Günü Afrika Birliyi Təşkilatının (ABT) yaradılması ilə təsis edilmişdir. Onun hüquqi varisi 2002-ci ilin yayında yaradılmış Afrika İttifaqıdır.

Bildirilir ki, Afrika Günü tədbirləri Aİ üzvü olan 55 ölkənin hamısında keçiriləcək.

38 Afrika ölkəsinin səfirliyinin fəaliyyət göstərdiyi Ankarada Afrika Gününə həsr olunmuş tədbirlər, o cümlədən Afrika ölkələrinin əl işlərindən ibarət sərgi də keçiriləcək.

Xatırladaq ki, 1963-cü il mayın 25-də Əddis-Əbəbədə (Efiopiya) Afrika Hökumətlərinin Birinci Konfransında dövlətlərarası Afrika Birliyi Təşkilatı (ABT) yaradılıb və onun nizamnaməsi 30 Afrika ölkəsi tərəfindən imzalanıb.

ABT öz məqsədləri kimi bunları müəyyənləşdirmişdi: qitə ölkələrinin birliyinin və həmrəyliyinin gücləndirilməsi; Afrika dövlətlərinin fəaliyyətlərinin əlaqələndirilməsi və hərtərəfli əməkdaşlığın inkişafı, suverenliyin, ərazi bütövlüyünün və müstəqilliyin qorunması; müstəmləkəçiliyin bütün formalarının məhv edilməsi və beynəlxalq əməkdaşlığın təşviqi.

Təyin olunmuş məqsədlərin uğurla həyata keçirilməsi üçün ABT üzvləri xarici siyasət, iqtisadiyyat, elm və texnologiya, müdafiə və təhlükəsizlik, mədəniyyət və səhiyyə sahələrində öz fəaliyyətlərini əlaqələndirməyi öhdələrinə götürüblər.

Əsas prinsiplər isə bərabərlik və üzv dövlətlərin daxili işlərinə qarışmamaqdan, onların ərazi bütövlüyünə və müstəqilliyinə hörmət etməkdən, mübahisələrin sülh yolu ilə həllindən ibarətdir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# İsraildəki səfirliyimiz Müstəqillik Günü münasibətilə ilk rəsmi tədbir təşkil edib

**Azərbaycan Respublikasının İsrail Dövlətindəki səfirliyi tərəfindən bu ölkədə ilk dəfə olaraq Müstəqillik Günü münasibətilə rəsmi tədbir keçirilib.**




Səfirlikdən AZƏRTAC-a bildirilib ki, tədbirdə İsrailin kəşfiyyat naziri Gila Qamliel, Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev, İsrail parlamentində İsrail-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Vladimir Beliak, Yisrael Beytenu partiyasının sədri Aviqdor Liberman, Knessetin digər üzvləri, Müdafiə Nazirliyinin baş direktoru Eyal Zamir, Rusiya Yəhudi Konqresinin vitse-prezidenti, eyni zamanda Dağ Yəhudiləri Beynəlxalq Xeyriyyə Fondunun prezidenti German Zaxaryayev, İsrail Prezidentinin və Baş nazirinin ofisinin səlahiyyətli nümayəndələri, İsrail Xarici İşlər Nazirliyinin, habelə digər dövlət qurumlarının əməkdaşları, İsraildə akkreditə olunmuş səfirlər, şəhər merləri və vitse-merləri, universitet rektorları, aparıcı beyin mərkəzlərinin ekspertləri, media nümayəndələri, iş adamları, həmçinin İsraildəki Azərbaycan diasporunun nümayəndələri, İsrailin ictimai-siyasi xadimləri və bu ölkədə təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının və İsrail Dövlətinin himnlərinin səsləndirilməsi ilə başlayıb.

Tədbiri giriş sözü ilə açan Azərbaycanın İsraildəki səfiri Muxtar Məmmədov iki ölkə arasında diplomatik münasibətlərin qurulmasından bəri ilk dəfə olaraq İsraildə Müstəqillik Günü ilə bağlı rəsmi tədbirin keçirildiyini diqqətə çatdırıb. Səfir ölkəmizin müstəqillik tarixi, habelə keçdiyi mübarizə yolu barədə tədbir iştirakçılarını məlumatlandırıb. O, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilən Azərbaycan-İsrail münasibətlərinin strateji səviyyəyə çatdığını diqqətə çatdırıb.

Daha sonra İsrail hökuməti adından çıxış edən kəşfiyyat naziri Gila Qamliel yeni fəaliyyətə başlamış Azərbaycan səfirliyi tərəfindən təşkil edilmiş ilk Müstəqillik Günü tədbirində iştirakından şərəf duyduğunu ifadə edərək iki ölkə arasında münasibətlərin qarşılıqlı hörmət və etimad üzərində qurulduğunu vurğulayıb. O, cari ilin mart ayında Prezident İlham Əliyev ilə baş tutmuş görüşünü məmnunluqla xatırlayaraq hər iki ölkənin regionda və dünyada sülhün, sabitliyin təmini üçün birlikdə çalışdıqlarını ifadə edib. G.Qamliel iki ölkə arasındakı münasibətlərin inkişafında Azərbaycanda yaşayan yəhudi icmasının xüsusi rolu olduğunu vurğulayıb.

Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev isə 2023-cü ildə Azərbaycan Xalq Cümhuriyyətinin 105 illiyinin, habelə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinin qeyd edildiyini diqqətə çatdırıb. O, həmçinin tədbir iştirakçılarına İsrail Dövlətinin müstəqilliyinin 75 illiyi münasibətilə təbriklərini çatdırıb. Nazir müavini Azərbaycan və İsrail arasında müxtəlif sahələrdə əməkdaşlığın davam və inkişaf etdiyini vurğulayaraq bu əməkdaşlığın daha da inkişafı üçün böyük potensialın olduğunu bildirib.

# Azərbaycanlı alimin məruzəsi beynəlxalq konfransda maraqla qarşılanıb

**Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində ICOMAM Beynəlxalq Komitəsinin və "QƏSR" Mədəni İrsi və Tarixi Abidələri Qoruyaq" İctimai Birliyinin İdarə Heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov "Mühəndis və rabitə qoşunları Artilleriya Hərbi-Tarix Muzeyi"nin 320 illiyinə həsr olunmuş "Müharibə və silahlar. Yeni tədqiqatlar və materiallar" XI Beynəlxalq Elmi-Praktiki Konfransda iki elmi məruzə ilə çıxış etmişdir.**




Qeyd edək ki, 2014-cü ildən etibarən bu konfranslarda P.Gözəlov ənənəvi olaraq elmi məruzələrlə çıxış edir.

Konfrans ölkələr, təşkilatlar, eləcə də müxtəlif sahələr üzrə mütəxəssislər arasında beynəlxalq mədəni, humanitar və hərbi əməkdaşlıq üçün yaxşı zəmin yaradır. Məruzədə Ermənistan-Azərbaycan münaqişəsi, xarici qüvvələrin xalqlar arasında qarşıdurmanı qızışdırmaq cəhdləri barədə ətraflı məlumat verilib. Konfransda Bakı, Dəməşq, Moskva, Sankt-Peterburq, Vladimir, Tver, Volqoqrad, Novosibirsk, Vladivostok, Xabarovsk, Kursk, Belqorod, Tula, Ufa, İjevsk, Petrozavodsk, Arxangelsk, Pskov, Saratov, Ulyanovsk, Nijni Taqil, Sizran və digər şəhərlərdən alim, tədqiqatçılar iştirak etmişlər.

Azərbaycanlı alim P.Gözəlov konfransdakı ilk məruzəsində XX əsrin əvvəllərində Azərbaycan, Ukrayna və Başqırd süvari alaylarının nadir bayraqları haqqında məlumat vermişdir. Qeyd olunan dövrdə Cənubi Qafqazda siyasi hadisələrdən asılı olaraq dəyişən dövlətçilik rəmzləri və atributları geniş şərh edilmişdir. Rəmzlərdən insanları ümumi məqsədə çatmaq üçün toplamaq, qarşılıqlı hörmət və ya əksinə, qəzəb, təcavüz və düşmənçilik hissi yaratmaq üçün istifadə olunurdu. İkinci məruzə isə Azərbaycan, Türkiyə və Rusiya Federasiyasının muzeylərində qorunan tarixi dövlətçilik və hərbi atributların genetik oxşarlığına həsr olunmuşdu. Məruzədə vurğulanmışdır ki, beynəlxalq mədəni-humanitar əməkdaşlıq Azərbaycan, Türkiyə və Rusiya Federasiyası üçün böyük əhəmiyyət kəsb edir.

*"Azərbaycan"*

# "Yaşıl iqtisadiyyat" qlobal inkişafa xidmət edir



**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev mayın 23-də ATƏT-in Parlament Assambleyasının sədri xanım Marqareta Sederfelti qəbul edərkən beynəlxalq münasibətlərin Qafqaz üçün əhəmiyyətli məqamlarına toxunmuş, Milli Məclisin və ATƏT Parlament Assambleyasının birgə təşkilatçılığı ilə keçirilən beynəlxalq konfransın əhəmiyyətini vurğulamış, nümayəndə heyətinin işğaldan azad edilmiş torpaqlarımıza səfərinin, orada aparılan işlərlə yerində tanış olmalarının önəmini diqqətə çatdırmışdır.**

Biz bu görüşü təsadüfən xatırlatmadıq. Bu gün Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan quruculuq işləri, yeniliklərin və innovasiyaların tətbiqi sülh nəzərriyyəsinin inkişafı baxımından bütün dünya üçün son dərəcə əhəmiyyətlidir. 44 günlük Vətən müharibəsində düşmən üzərində zəfər çalan Azərbaycan Ermənistanın sülhə sarı ətalətlə və pis aktyor qiyafəsində komik ləngərləməsinə rəğmən, sülh müqaviləsinin imzalanması üçün fəal təşəbbüslər göstərir, böyük çətinliklərin və ciddi təsirlərin bahasına Ermənistanı sülhə sövq edir. Azərbaycan Prezidenti ATƏT-nin Parlament Assambleyasının sədri xanım Marqareta Sederfelt ilə görüşündə ən vacib məsələlərdən birini də belə incələmişdir ki, Azərbaycan, Gürcüstan və Ermənistanın eyni platformada bir araya gətirilməsi və inteqrasiya olunmuş Cənubi Qafqaz modelinin yaradılması təşəbbüsü məhz ölkəmiz tərəfindən irəli sürülmüşdür.

Məlumdur ki, bu gün Azərbaycan bütün qüvvəsini iqtisadi islahatların dərinləşməsinə, iqtisadiyyatın güclənməsinə yönəltmişdir. Bu baxımdan xanım Marqareta Sederfeltin Milli Məclisin və ATƏT Parlament Assambleyasının birgə təşkilatçılığı ilə "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransın xüsusi əhəmiyyət kəsb etdiyini vurğulaması təsadüfi deyil. Xanım Marqareta Sederfelt bu tədbirdə ATƏT-ə üzv ölkələrin çox sayda parlament nümayəndə heyətlərinin təmsil olunduğunu bildirmiş və gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün yaxşı imkan yarandığını diqqətə çatdırmışdır.

ATƏT Parlament Assambleyasının sədrinin və nümayəndə heyətinin Zəngilan rayonuna səfəri, işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işləri ilə yerində tanış olması isə qonaqlara dünyaya özünü ən "qədim" və ən "müdrik" xalq kimi sırımağa vərdişli olan ermənilərin 30 illik işğal dövründə hansı rəzilliklərə imza atdıqlarını öz gözləri ilə görməyə imkan yaratmışdır. Təzada baxın: qonaqlar eyni zamanda Zəngilan şəhərində həyata keçirilən yenidənqurma işləri, eləcə də "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndi ilə tanış olmuşlar. Daha sonra Prezidentin Zəngilan rayonu üzrə xüsusi nümayəndəsi Vahid Hacıyev qonaqlar üçün təqdimat mərasimi keçirmişdir. Ardınca ATƏT rəsmiləri dəmir yolu infrastrukturuna, "Azərişıq" ASC-nin "yaşıl enerji" obyektlərinə baş çəkmişlər. Bu tədbir müharibənin girdablarında sürünən Ermənistanla qüdrətli və sülhsevər Azərbaycan arasında fərqləri görməyə imkan yaratmışdır.

Məlumat üçün bildirək ki, ATƏT PA-nın nümayəndələrinin iştirakı ilə mayın 22-də Bakıda keçirilən "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda konfrans hazırda cəmiyyətlərin üzləşdiyi böyük iqtisadi və ekoloji təhlükəsizlik problemlərinin faydalı həlli üçün yolların müəyyən olunmasına xidmət edirdi. Konfransda "yaşıl iqtisadiyyat"ın qlobal və yerli səviyyədə sosial-iqtisadi tərəqqiyə təsiri mövzusuna toxunulmuş, ekoloji təhlükəsizliyin təmin olunması və ətraf mühitin çirklənməsinin minimuma endirilməsi üçün mütərəqqi üsulların tətbiqinin vacibliyi vurğulanmışdır. Bu tədbir bir daha göstərmişdir ki, Azərbaycan bölgəmiz üçün davamlı, ədalətli və təhlükəsiz gələcəyin təmin edilməsinə çalışır.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# İstixana qazları tullantılarının izlənilməsi üzrə qlobal mexanizm yaradılıb

**193 ölkə istixana qazları tullantılarının monitorinqi üzrə qlobal mexanizmin yaradılmasını yekdilliklə təsdiq ediblər. AZƏRTAC BMT-nin Xəbərlər xidmətinə istinadla xəbər verir ki, bu barədə Ümumdünya Meteorologiya Təşkilatı (ÜMT) bildirib.**

Tarixi qərar onunla bağlı qəbul olunub ki, istini özündə saxlayan istixana qazlarının konsentrasiyası rekord səviyyəyə çatıb. Bu, son 800 min ilin hər hansı dövründən daha yüksəkdir".

İstixana qazları tullantılarının izlənilməsi üzrə yeni qlobal mexanizm Yerdən və kosmosdan alınan müşahidə məlumatlarını modelləşdirmə ilə birləşdirəcək. Ekspertlər hesab edirlər ki, bu cür yanaşma baş verənlərin daha dolğun mənzərəsini çəkməyə imkan verəcək. Layihənin həyata keçirilməsi zamanı havanın proqnozlaşdırılmasında ÜMT-nin beynəlxalq əməkdaşlığın koordinasiyası sahəsindəki təcrübəsindən istifadə olunacaq.



ÜMT nümayəndələri qeyd edirlər ki, İqlim üzrə Paris sazişinin dəstəklənməsi çərçivəsində həyata keçirilən məlumat mübadiləsi "azad və məhdudiyyətsiz" olacaq.

ÜMT-nin məlumatına əsasən, 1990-2021-ci illər ərzində əsas istixana qazları olan karbon qazı, metan və azot oksidinin iqlimə təsiri təxminən 50 faiz artıb. "Tədqiqatların nəticələrinə görə, istixana qazlarının konsentrasiyası rekord səviyyədədir", - deyə ÜMT-nin baş katibi Petteri Taalas bildirib. O əlavə edib ki, 2020-2021-ci illərdə karbon qazının səviyyəsinin artması son onilliyin orta artım templəri ilə müqayisədə daha yüksək olub, metan isə ölçmələr başlayandan bəri ən yüksək illik sıçrayış nümayiş etdirib".

"Qeyri-müəyyənlik, xüsusilə də okean dövrəsi, qurunun biosferası və daimi donuşluq ərazilərinə gəldikdə, hələ də mövcuddur. Buna görə də biz birləşdirilmiş sistem çərçivəsində istixana qazları tullantılarını izləməliyik ki, təbii mənbələri və uducuları həm onların hazırda fəaliyyət göstərdiyi, həm də iqlim dəyişikliyi nəticəsində necə dəyişəcəkləri tərzdə nəzərə almağa imkanımız olsun. Bu məlumat İqlim üzrə Paris sazişinin reallaşdırılması üçün vacibdir", - deyə Taalas qeyd edib.

ÜMT-nin infrastruktur üzrə direktor müavini Lars Peter Riyşoyqaard BMT-nin İqlim dəyişməsi nəticələrinin yumşaldılması problemi üzrə meteorologiya agentliyinin qərarını "tarixi addım" adlandırıb. "Hamı üçün açıq olan və ÜMT-nin azad və məhdudiyyətsiz məlumat mübadiləsi üzrə siyasətinə uyğun fəaliyyət göstərən, beynəlxalq səviyyədə koordinasiya olunan istixana qazlarının qlobal monitorinqi BMT-nin İqlim Dəyişməsi üzrə Çərçivə Konvensiyası (BMT-nin İqlim Dəyişməsi barədə Konvensiyanın Katibliyi) tərəfdaşlarına istixana qazlarının axınları barədə dəyərli, vaxtında və etibarlı məlumatı təqdim edəcək, bu da iqlim dəyişməsi nəticələrinin yumşaldılması üzrə onların səylərində yardım olacaq", - deyə o əlavə edib.

# UZUNÖMÜRLÜLÜK -
## gen daşıyıcılığı, yoxsa sağlam yaşam formulu



**Hər kim yüz il yaşamasa, günah onun özündədir...**
**Bəs, görəsən, ötən yüzilliklə müqayisədə XXI əsrdə də bu kəlam həqiqəti əks etdirirmi? Bəlkə də, uzun ömür sürməməkdə günahkar insanların özləridirlər. Həkimlərin, fizioloqların əksəriyyəti ulu nənələrimizin, babalarımızın 100 ildən çox ömür sürmələrinin əsas səbəbini gen daşıyıcılığı hesab etsələr də, bəzən onların uzunömürlülüyünün səbəbini qayğısız, stressiz, problemsiz həyatla əlaqələndirirlər. Amma müasir zamanın yaratdığı reallıqlar göstərir ki, uzun ömür anlayışı dövrümüzdə müəyyən qədər "cavanlaşıb". Çünki 80 yaşdan yuxarı insanlar üçün "yaşayacağını yaşayıb" deyimini tez-tez eşidirik. Çünki 40-60 yaş aralığında ölüm halları adiləşib. Əlbəttə ki, bunun səbəbləri var. Beləliklə, uzunömürlülüklə bağlı apardığımız araşdırmada çox maraqlı məqamlara rast gəldik...**

### Uzunömürlülüyə təsir edən bir sıra faktorlar

Azərbaycanda 90 yaşına çatmış insan uzunömürlü hesab edilsə də, dünya üzrə bu yaş həddi 100-dür. Araşdırmalara görə, uzunömürlülüyə təsir edən bir sıra faktorlar mövcuddur. Burada ekoloji təsir, irs, həyat tərzi, sağlam qidalanma xüsusi yer tutur.

Ümumiyyətlə isə, ölüm hallarının artması müəyyən xəstəliklərlə əlaqəli olur. Bu da daha çox hərəkətsizlik və qidalanma ilə bağlıdır. Hazırda sağlam, təbii qida məhsulları tapmaq müşkülə çevrilib. Necə deyərlər, "heç nəyin dadı qalmayıb".

Dünya tibbi müxtəlif xəstəliklərin müalicəsini taparaq kütləvi ölüm hallarının qarşısını alsa da, zaman-zaman tibbə məlum olmayan xəstəliklər də aşkarlanır.

Statistikaya əsasən, ölkəmizdəki uzunömürlülər daha çox görmə və eşitmə üzvlərinin xəstəliklərindən əziyyət çəkirlər. Ölüm hallarına isə daha çox ürək qan-damar xəstəlikləri olan şəxslərdə rast gəlinir.

Azərbaycan da əhalinin uzunömürlülüyünə görə fərqlənən ölkələrdəndir. Uzunömürlü insanlara əsasən dağlıq və dağətəyi rayonlarda rast gəlinir. Çünki bu bölgələrdə insanlar çirkli atmosferdən uzaq, təmiz dağ havasında yaşayır, qidalanmaya gəldikdə isə daha çox əkib becərdikləri təmiz məhsullardan istifadə edirlər. Yəni qida rasionları təbiidir. Bu isə onların orqanizmlərinin möhkəmlənməsinə səbəb olur. Məlumatlara görə, Azərbaycanda uzunömürlü insanların üstünlük təşkil etdiyi Talış bölgəsi, İsmayıllı, Gədəbəy, Tovuz, Quba rayonlarıdır. İndiyədək Azərbaycanın ən uzunömürlü sakini 168 yaşlı Şirəli Müslümov olub ki, o da "Ginnesin Rekordlar Kitabı"na daxil edilib.

Son illərdə əhalinin siyahıyaalınmasında 90 yaşdan yuxarı insanların ötən əsrlə müqayisədə azaldığı, eyni zamanda 85 yaşdan yuxarı yaşlarda ölüm hallarının çoxaldığı müşahidə olunur. Dövlət Statistika Komitəsindən bildirilib ki, 2023-cü il yanvarın 1-nə olan məlumata görə, respublikamızda 100 və yuxarı yaşda əhalinin sayı 1021 nəfər olub. Onların 381 nəfərini kişilər, 640 nəfərini isə qadınlar təşkil edir.

2022-ci ildə Azərbaycanda ömür göstəricisi əhali üzrə 76 yaş, o cümlədən kişilərdə 73.6, qadınlarda 78.4 yaş olub.

### Dünyada uzunömürlülük indeksinə görə fərqlənən ölkələr

Ümumdünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatı, "CIA World Factbook və Mavi Zonalar" layihəsinin nəticələrinə görə, dünyanın ən uzunömürlü insanlarının yaşadığı 29 ölkə müəyyənləşib.

Orta ömür uzunluğuna görə ilk yerdə Yaponiya qərarlaşıb. Bu ölkədə ömür göstəricisi 85.3 yaşdır. Yaponiyanın Okinava adasında dünyanın hər yerindən daha uzun ömür sürən qadınlar yaşayır. Belə ki, bu adada yaşayan 1,3 milyon insandan 740-ı 100 yaşdan yuxarıdır və onların 90 faizi qadınlardır. İkinci yerdə isə Sinqapur (orta ömür göstəricisi 85.2 yaş), üçüncü yerdə Makao (orta ömür göstəricisi 84.6 ) yer alıb. Növbəti yerlərdə isə San Marino, İslandiya, Honkonq, Andorra, Gernsey, İsveçrə, İsrail, Cənubi Koreya, Lüksemburq, Avstraliya və başqa ölkələr qərarlaşıb. Sonuncu qeydə alınan Barbadosda orta ömür uzunluğu isə 75.5 yaşdır.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, ən uzunömürlü insanlar Yaponiyada yaşayırlar. Müşahidələr göstərir ki, yaponlar 75 il qüsursuz yaşaya bilirlər. Bu, onların sağlam və aktiv həyat tərzi ilə bağlıdır.

ÜST-nin məlumatına görə, Kanada kişilər üçün gözlənilən ömür uzunluğuna görə yeddinci, qadınlar üçün isə on birinci yerdə qərarlaşıb. Bunu onların sağlam həyat tərzi ilə yanaşı, bir-birlərinə bağlılıqları və sevgiləri ilə də əlaqələndirilir.

Hazırda "Ginnesin Rekordlar Kitabı"nda yer alan dünyanın ən uzunömürlü insanı ispaniyalı Mariya Brune Moreyradır. O, bu ilin yanvarında 118 yaşlı fransız Lusil Randonun ölümündən sonra bu mövqedə yer alıb. Brune 1907-ci il martın 4-də San Fransiskoda dünyaya gəlib. Hazırda Kataloniyada yaşayır.

### Ölkəmizdə ən uzunömürlü insanlar harada yaşayırlar?

Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunun baş direktoru, professor Ulduz Həşimova qəzetimizə açıqlamasında deyib ki, sovet dövründə ölkəmizdə aparılmış herontoloji tədqiqatların nəticələri Azərbaycanda ən yüksək uzunömürlülük indeksinin Qarabağda qeydə alındığını göstərib.

Onun sözlərinə görə, beynəlxalq herontoloji təcrübəyə əsasən, bu indeks 90 yaşdan yuxarı şəxslərin 60 yaşdan yuxarı olan əhaliyə olan nisbəti kimi hesablanır. Həmin illərdə beynəlxalq işçi qrupu tərəfindən fərdi uzunömürlülük rekordu da Qarabağda qeydə alınıb. Belə ki, 1986-cı ildə Kəlbəcər rayonunun Yaşma kənd sakini Cəfərov İlyasın yaşı verifikasiya edildikdən sonra 125 il kimi təsdiqlənib. Son illər rəsmi statistik məlumatlar əsasında aparılan araşdırmalarda Qarabağ bölgəsinin, xüsusən Şuşa və ona yaxın rayonların bu göstəricisi də lider olduğunu təsdiq edir.

Alim bildirib ki, yüksək uzunömürlülük indeksləri, həmçinin İsmayıllıda və ətraf rayonlarda, cənub bölgəsində qeydə alınır.

Hazırda əsas tədqiqat işlərinin Azərbaycanın cənub-şərq bölgəsində - Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı rayonlarında aparıldığını deyən Ulduz Həşimova rəsmi statistik məlumata əsasən, bölgədə 655 uzunömürlünün yaşadığını vurğulayıb: "Onlardan 384 nəfəri qadın, 275 nəfəri kişidir. Yaşı 100 və daha çox olan 13 nəfər qeydə alınıb. Ümumiyyətlə, orta yaş müddətində gender fərqləri mövcuddur, qadınlar kişilərə nisbətən daha uzun ömür sürürlər. Bu, qlobal tendensiyadır və Azərbaycan da bu cəhətdən istisna deyil. Bizim layihənin əhatə etdiyi iştirakçılar arasında ən uzunömürlü qadın 105 yaşındadır, Astarada yaşayır, ən yaşlı kişi isə 102 yaşlı Masallı sakinidir".

Professor deyib ki, ölkəmizdə orta ömür uzunluğu qadınlarda 78, kişilərdə isə 72 yaş kimi qeydə alınıb. Layihəyə cəlb olunmuş şəxslər arasında yaşı yüzü keçmiş olanların sayı 13 nəfərdir. Onlardan 10 nəfəri qadın, 3 nəfəri kişidir. Uzunömürlülərin 7 nəfəri Lənkəran rayonunda yaşayır. Hazırda Lerik rayonunda yaşı 100-ü ötmüş uzunömürlü qeydə alınmayıb.

İnstitutun baş direktoru qeyd edib ki, ötən əsrlə müqayisədə uzunömürlü insanların sayı azalıb. Bunu həm ekoloji, həm də sosial faktorlarla əlaqələndirmək olar. Əlbəttə ki, bu məsələdə pandemiyanın da rolu qeyd olunmalıdır.

Onun sözlərinə görə, xarici elm adamları ilə birgə molekulyar tibbin imkanlarından istifadə etməklə qocalma və müxtəlif yaşla bağlı xəstəliklərin biomarkerlərinin təyini üsulu işlənib hazırlanıb. Bu üsulun köməyi ilə ilk dəfə uzunömürlülər də daxil olmaqla, müxtəlif yaş qruplarında qocalma biomarkerləri sayılan melatoninin və sirtuinlərin ekspressiyasının səviyyəsi ürək-damar sisteminin statusu ilə əlaqəli tədqiq edilib. "Bu tədqiqatların nəticələri ürək-damar xəstəliyi olan heriatrik pasiyentlərdə müalicə taktikasının müəyyənləşdirilməsi üçün əhəmiyyət kəsb edir. Digər tədqiqatlar Azərbaycanda uzunömürlülüyün yayılma coğrafiyasının araşdırılması ilə bağlıdır. Ötən əsrin sonlarından başlayaraq Azərbaycanda uzunömürlülük indeksi yüksək olan populyasiyalarda aparılan kompleks biotibbi tədqiqatların nəticələri əsasında ölkənin ayrı-ayrı rayonlarında "təbii uzunömürlülük ocaqları" aşkarlanıb. Bu rayonlarda əlverişli təbii-ekoloji və sosial şəraitin nadir birləşməsi sayəsində yerli əhali arasında təbii-tarixi olaraq uzunömürlülər üstünlük təşkil edir. Azərbaycanda belə "uzunömürlü ocaqlar"ın yayılma coğrafiyasının retrospektiv təhlili ölkənin bəzi regionlarının, xüsusən də Qarabağın "mavi zona" adlandırılan statusa uyğun potensialını göstərir. Müəyyən edilib ki, Qafqaz xalqları arasında ən yüksək uzunömürlülük indekslərindən birinə tarixən Qarabağda rast gəlinir", - deyə U.Həşimova əlavə edib.

Alim vurğulayıb ki, cənub bölgəsində uzunömürlülərin populyasiya-genetik, sosial bioloji və fizioloji xüsusiyyətlərinin müqayisəli tədqiqi üzrə işlər davam etdirilir.

### Azərbaycanda uzunömürlülüyü təmin edən təbii-coğrafi amillər kobud şəkildə pozulur

Sosioloq Asif Bayramov uzunömürlülüyə təsir edən sosial faktorlar barədə danışıb. Ekspert bildirib ki, uzunömürlülük dünyanın istənilən coğrafiyasında mümkündür. İndi yalnız Qafqaz ərazisində deyil, hətta Afrikanın səhralarında belə uzunömürlü tayfalar yaşayır.

Onun sözlərinə görə, insanın uzunömürlü olması fiziki, psixoloji parametrlərlə bağlıdır, yəni insan fiziki baxımdan sağlamdırsa və psixoloji vəziyyəti bu sağlamlığı tamamlayırsa, onun uzun yaşama ehtimalı da artır. "Azərbaycanda uzunömürlülüyün təmin olunması üçün təbii-coğrafi amillər son dərəcə əlverişlidir. Amma bu faktorları pozan antropogen amillər də var. Bu gün Azərbaycanda gedən proseslər göstərir ki, uzunömürlülüyü təmin edən təbii-coğrafi amillər insanlar tərəfindən kobud şəkildə pozulur və aşındırılır. Bu da ölkəmizdə uzunömürlülük indeksinə neqativ təsir edir", - deyə A.Bayramov deyib.

1990-cı ildən 2023-cü ilə qədər Bakı şəhərinin əhalisinin 4 dəfə artdığını qeyd edən ekspert paytaxtdakı yaşıllığın ümumi sahəsinin 3 dəfə azaldığını bildirib. Yaşıllıq sahələrinin təxminən 30-40 il bundan əvvəlkinə nisbətən hazırda 25 faizi mövcuddur. Ekoloji faktor pozulursa, yəni insan sağlamlığını təmin etməli olan fiziki, təbii amillər aşındırılırsa, ömrün azalmasına da təsir edir.

Sosioloq bildirib ki, Azərbaycanda onkoloji, ürək-damar və şəkərli diabet xəstəliklərinin daha geniş yayılması təbii-coğrafi amillərin pozulması və sosial-psixoloji faktorun normadan kənara çıxması ilə bağlıdır: "Sosial problemlər ömürə təsir göstərir. Nəticədə insanların psixoloji sağlamlığı fiziki sağlamlığını tamamlamır. Belə bir məsəl var ki, 100 xəstəliyin 99-u əsəblə bağlıdır. Əgər cəmiyyətdə psixoloji gərginlik məqbul səviyyədən yuxarı qalxırsa, hətta təbii-coğrafi amillərin yerində olması belə sağlamlığı təmin edə bilmir".

İnsanın bioloji və sosial varlıq olduğunu qeyd edən ekspert əlavə edir ki, bioloji baxımdan sağlamlığı təmin olunan, mənəvi-psixoloji durumu qaydasında olan insan orqanizminin uzun yaşama şansı artır. Azərbaycanda uzunömürlülüyü təmin etmək istəyiriksə, iki faktoru qorumalı və ya bərpa etməliyik. "Qərb elmində uzunömürlülük ciddi və ardıcıl araşdırılan mövzudur. Hazırda qlobal səviyyədə insanların ömrü uzanır. Əgər 100 il bundan əvvəl 60-70 yaşlı insan intellektual baxımdan zəif, fiziki baxımdan yararsız idisə, bugün öz sağlamlığını təmin edə bilir. Çünki bir çox xəstəliyin tibbi müalicəsi mümkündür. Ancaq bir çox xəstəlik cavanlaşıb deyəndə biz onu bütün ölkələrə şamil edə bilmərik. O dövlətlər ki əhalisinin fiziki-mənəvi sağlamlığını qoruyan proqramlar qəbul edir, onlar müntəzəm icra edilir, həmin ölkələrdə xəstəliklər cavanlaşmır", - deyə ekspert bildirib.

### Təhlükəli qidalar ömrü azaldır

Xəstəliklərin uzunömürlülüyə təsirindən danışan Asif Bayramov onu da qeyd edib ki, bəzən mağazalardan alıb yediyimiz məhsulların tərkibini bilmirik. Ölkəmizə hər il 100 min tonlarla palma yağının gətirildiyini qeyd edən sosioloq bildirib ki, həmin yağların satışına marketlərdə rast gəlinməsə də, onlar şokoladlara, un məmulatlarına, kərə yağı adı altında aldığımız yağlara qatılır: "Bunun nəticəsində onkoloji xəstəliklər olduqca cavanlaşıb. Bu baxımdan cəmiyyətin mənəvi-psixoloji sağlamlığını təmin edən sosial proqramlara və xüsusi nəzarət mexanizminin yaradılmasına çox ehtiyac var".

Uzunömürlülük indeksinə görə hər il müxtəlif ölkələrin ilk yerdə qərarlaşdığını deyən ekspert qeyd edib ki, Böyük Britaniya uzunömürlü insanların yaşadığı əsas ölkələrdəndir. Onun sözlərinə görə, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə uzunömürlülük indeksi artır. İnsan sosial sarsıntı yaşamırsa, onun uzun ömür sürməsi üçün daha əlverişli şərait yaranır.

Araşdırmalar da göstərir ki, hazırda insanın uzun ömür sürməsini təmin edən əsas faktorlara antropogen amillərin mənfi təsiri olduqca yüksəkdir. Tibb inkişaf etdikcə xəstəliklərin çarəsi tapılsa da, insanların sağlamlıqlarına məsuliyyətsiz yanaşması onların gənc yaşlarda belə həyatlarını itirmələrinə səbəb olur. Uzun ömür yaşamaq, rahat və gümrah həyat sürmək üçün sağlamlığınızın qeydinə vaxtında qalmalı, idmanla məşğul olmalı, qidalanmanıza, həyat tərzinizə diqqət etməlisiniz. Onda hər yaşın gözəlliyini dada bilərsiniz.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*





# Mədəniyyət





● İstiqlal tariximizdən

**Dövlətçilik tariximizdə müstəsna yeri olan Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) hakimiyyəti cəmi iyirmi üç ay - 1918-ci ilin mayından 1920-ci ilin 28 aprelinədək sürdü. Bolşeviklərin işğalı ilə Azərbaycanın vətənpərvər övladlarının uzun illər apardıqları mücadilələrin nəticəsində qurulan müstəqil hökumət süquta uğradı.**



## Azərbaycan teatr sənətinin uğurlarla yadda qalan cümhuriyyət dövrü

Ömrü qısa oldu. Hakimiyyəti dövründə də başının üzərindən qara buludlar heç çəkilmədi. Həm ölkənin daxilindəki düşmənlər, satqınlar, həm də yadelli işğalçılar Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətinə son qoymaq üçün bir an belə cəhdlərindən əl çəkmədilər. Ancaq bütün dəhşətli təhlükələrə, təhdidlərə, saysız-hesabsız problemlərə baxmayaraq, cümhuriyyət hökuməti bütün sahələrdə böyük işlərə başlaya və bir sıra uğurlara nail ola bildi. Bu baxımdan da, Azərbaycan xalqının tarixi, siyasi, ictimai və mədəni həyatında silinməz izlər buraxdı.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması arzuların çiçək açması, xəyalların gerçək olması idi. Bunu şairlər, yazıçılar, dramaturqlar öz əsərlərində böyük vəcdlə tərənnüm edirdilər. Yeni yaranan bir çox əsərlər səhnəyə qoyulurdu. Cümhuriyyət hökuməti milli teatrın inkişafına da diqqət göstərirdi. Bu sahənin ictimai həyatda rolu yüksəlirdi. Azərbaycan tarixi və milli azadlıq mübarizəsini əks etdirən yeni əsərlər səhnələşdirilirdi.

Peşəkar Azərbaycan teatr sənətinin əsası 1873-cü ildə qoyulub. Hələ Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətə gəlməmiş - XX əsrin əvvəllərində bu sahədə bir sıra diqqətəlayiq işlər həyata keçirilmişdi. Yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə 1900-cü ildə ilk daimi teatr truppası qurulmuşdu. 1906-cı ildə "Nicat" mədəni-maarif cəmiyyətinin nəzdində yaradılan teatr bölməsi, qabaqcıl teatr xadimlərinin bir truppada birləşdirilməsi milli teatrın inkişafında atılan mühüm addımlar olmuşdu. 1912-ci ildən isə "Səfa" cəmiyyətinin teatr bölməsi fəaliyyət göstərirdi.

Həmin illərdə Azərbaycan teatrının ən böyük problemlərindən biri də tamaşalarda aktyor kimi iştirak etmək istəyənlərin azlığı idi. Çünki aktyorlar çox zaman hətta öz yaxınları tərəfindən belə qınaqlara, hətta təhdidlərə, təzyiqlərə düçar olurdular. Belə bir zamanda "Müsəlman artistləri cəmiyyəti"nin yaradılması aktyorların yaradıcılığının inkişafına, peşəkarlığının yüksəldilməsinə müsbət təsir göstərirdi.

1918-ci ilin mart soyqırımı Bakıda dinc həyata son qoydu. Teatr və aktyor truppaları da fəaliyyətlərini dayandırmaq məcburiyyətində qaldılar. Bakıda teatr truppalarının yenidən təşkil olunmasına yalnız Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra mümkün oldu.

Bakıda cümhuriyyət dövründə fəaliyyətini bərpa edən ilk truppa "Hacıbəyli qardaşları" olub. Hüseyn Ərəblinski, Mirzağa Əliyev, Hüseynqulu Sarabski, Hacağa Abbasov, Cəlil Bağdadbəyov, Əhməd Ağdamski, Rza Darablı, Sidqi Ruhulla, Muxtar Məhəmmədzadə, Məmmədtağı Bağırzadə, Ələkbər Hüseynzadə, Bağır Kazımovski, Məğfurə xanım, Yeva (Yevgeniya) Olenskaya və başqalarının daxil olduğu bu truppa həftədə üç gün dram, komediya, opera və operetta tamaşaları göstərib. "Hacıbəyli qardaşları" teatr truppasının repertuarında "Dağılan tifaq", "Pəri-cadu", "Ağa Məhəmməd şah Qacar", "Gaveyi-ahəngər", "Axşam səbri xeyir olar", "Sultan Əbdülhəmidin "xəl"i və yaxud zülm və istibdadın axırı", "Ənvər bəyin Ədirnə fəthi", "Azərbaycan" kimi dram əsərləri, "Arşın mal alan", "O olmasın, bu olsun" ("Məşədi İbad"), "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşid banu", "Aşıq Qərib", "Evliykən subay", "Şah İsmayıl" kimi operalar və operettalar olub.



"Hacıbəyli qardaşları" teatr truppası Qafqazın bir çox şəhərində, İranda qastrol səfərlərində olub.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıdan başqa bir sıra şəhər və qəzalarında da teatr truppaları təşkil edilib. Şuşada Hacıbəyli qardaşlarının teatr müdiriyyətinin filialı yaradılıb.

Qeyd etdiyimiz kimi, Azərbaycan peşəkar teatrının tarixi 1873-cü ildən başlayır. Ancaq Azərbaycan Xalq Cümhuriyyəti dövründə Dövlət Teatrı statusu alıb. Beləliklə, cümhuriyyət hökumətinin teatrın inkişafı istiqamətində həyata keçirdiyi mühüm işlərdən biri də Azərbaycan Dövlət Teatrının təşkili olub.

Daha bir mühüm məsələ isə cümhuriyyət hökumətinin 1918-ci il 9 oktyabr tarixli qərarına görə, teatr işinin maarif nazirliyinin sərəncamına verilməsi olub. Həmin ilin 18 oktyabrında hökumət Dövlət Teatrının təşkili haqqında xalq maarifi nazirinin məruzəsini dinləyib, Mayılov qardaşları teatrının binasını (hazırda Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı) dövlət teatr üçün almaq barədə qərar verib. Xalq maarifi nazirinə tapşırılıb ki, teatrın binası məcburi olaraq, amma ədalətli qiymətlə nazirliyin sərəncamına alınsın və Dövlət Teatrı adlandırılsın.

Dövlət Teatrında göstərilən ilk tamaşa 1918-ci il noyabrın 4-də Nəriman Nərimanovun "Nadir şah" faciəsi olub. Dövlət Teatrında Azərbaycan Xalq Cümhuriyyəti dövründə yalnız opera, musiqili teatr tamaşaları, xalq musiqisindən ibarət konsertlər təşkil olunmayıb. Burada həm də mühüm dövlət tədbirləri keçirilib.

Daha bir uğurlu addım isə cümhuriyyət hökumətinin müsəlman teatr truppasını öz himayəsinə götürmək barədə qərarı olub. 1919-cu ilin 17 noyabrında Nazirlər Şurasının iclasında maarif naziri türk opera-dram teatrının təşkili haqqında məruzə edib. Cümhuriyyət hökuməti tərəfindən Türk Opera-Dram Teatrının yaradılmasını nəzərdə tutan qanun layihəsi bəyənilib. Teatrın bərpasına vəsait ayrılıb. Beləcə, Azərbaycan türk teatrı milliləşdirilib, dövlətin himayəsinə verilib.

Ənənəvi olaraq xeyriyyə tamaşaları təşkil edilib. Bu məsələdə də Hacıbəyli qardaşlarının truppası xüsusi fəallıq göstərib. Həlak olmuş döyüşçü ailələrinin xeyrinə verilən teatr tamaşaları haqqında mütəmadi "Azərbaycan" qəzetində elanlar verilib.

Cümhuriyyət dövründə teatr Azərbaycanın mədəni həyatında olduqca böyük rol oynayıb. Bunu həmin dövrdə fəaliyyət göstərmiş mətbu orqanların səhifələrində qalan bir çox yazılar, xəbərlər də təsdiq edir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Unudulmazlar

## Xalqının yoluna işıq salan vətənpərvər

**Xalqımızın əbədiyaşar isimlərindən, Azərbaycan tarixinə adını görkəmli maarif xadimi, müəllim, yazıçı, bir sıra lüğətlərin, dərsliklərin müəllifi kimi yazmış Sultanməcid Hacı Murtuzəli oğlu Qənizadə 1866-cı ilin aprelində Şamaxı şəhərində tacir ailəsində dünyaya göz açıb. Firudin Köçərlinin yazdıqlarına görə tanınmış Şamaxı şairlərindən Ağa Məsih Şirvani Sultanməcidin ulu babası olub. Ədibin bəzi məqalələrini "Məsihzadə" imzası ilə yazması da bu varisliyə dəlalət edir.**



Sultan məcidin atası Hacı Murtuzəli tacir idi, Şamaxının sayılıb-seçilən ziyalılarından olub. Elmə, maarifə böyük maraq göstərib. Kiçik yaşlarından yazıb-oxumağa həvəsi olan Sultanməcidin ilk müəllimi də atası olub. O, əvvəlcə övladına yazıb-oxumaq öyrədib, sonra da onu şəhərdəki müxtəlif məktəblərdə oxudub. Bir müddət məhəllə məktəbində təhsil alan Sultanməcid üç il də S.Ə.Şirvaninin üsuli-cədid məktəbində oxuyub. O, burada Azərbaycan, fars və rus dillərini öyrənib. Şirvaninin məktəbində rus dilini öyrəndikdən sonra o, təhsilini Şamaxıdakı rus məktəbində davam etdirib.

Rus dilini mükəmməl öyrənən Sultanməcid Qənizadə 1883-cü ildə Tiflisdəki Aleksandrovski Müəllimlər İnstitutuna daxil olub. Bu institut 50 ilə yaxın müddətdə vilayətlərin şəhər məktəbləri üçün müəllim kadrları hazırlayıb. Onu da qeyd edək ki, tələbələr burada olduqca ağır bir şəraitdə təhsil alıb, dünyəvi elmlərlə yanaşı, ilahiyyat dərslərini də öyrəniblər. Padişahpərəst maarif məmurları tələbələri Allahın və çarın "sadiq bəndələri" kimi tərbiyələndirmək üçün bütün vasitələrdən istifadə ediblər. Lakin onların təzyiqlərinə baxmayaraq, dünyəvi elmlər öz işini görüb, hətta tələbələrin arasında rus inqilabçı demokratlarının əsərlərini və yasaq edilmiş digər ədəbiyyatı oxuyanlar da olub. Ədib xatirələrində gizli ədəbiyyat oxuyan tələbələr içərisində onun da olduğunu qeyd edib.

S.Qənizadənin bir yazıçı, maarif xadimi kimi yetişməsində təhsil aldığı Aleksandrovski İnstitutunun mühüm rolu olub.

Çar maarif nazirinin 1887-ci ildə verdiyi sərəncama görə, o vaxt müsəlmanların şəhər məktəblərində müəllim işləməsi çar hökuməti tərəfindən qadağan edildiyindən S.Qənizadə tələbə dostu və gələcəkdə yaxın silahdaşı olacaq Həbibbəy Mahmudbəyovla birlikdə kənd məktəblərinə müəllim təyin ediliblər. Bu haqsızlıqla razılaşmayan hər iki dost Bakıya gələrək 1887-ci ildə "Rus-Azərbaycan məktəbi" adlı ibtidai təhsil ocağının təməlini qoyublar. Bununla da Azərbaycan maarifi tarixində yeni dövr başlayıb.

Sultanməcid Qənizadə ədəbi yaradıcılığa da Bakıda müəllimlik etdiyi 1890-cı illərdə başlamışdır. Onun xalq nağılları əsasında uşaqlar üçün yazdığı "Tülkü və Çaq-çaqbəy" mənzum hekayəsi, "Məktubati-xarı" "Gəlinlər həmayili" və rus yazıçısı A.F.Poqosskinin eyniadlı hekayəsindən qismən təbdil etdiyi "Allah divanı" əsərləri həmin illərdə yaranmışdır. Ədibin 1891-ci ildə "Qönçə xanım" adlı bir pyes yazdığı haqda məlumatlar olsa da, bu pyes indiyə qədər tapılmamışdır.

Rus dramaturgiyasını ilk dəfə səhnəmizə gətirən də Sultanməcid Qənizadə olub. O, 1894-cü ildə L.Tolstoyun "Əvvəlinci şərabçı" pyesini tərcümə edərək may ayında Bakıda tamaşaya qoyub.

XX əsrin əvvəlində Sultanməcid Qənizadə bir-birinin ardınca "Lüğəti-rus və müsəlman", "İstilahi-Azərbaycan" və Əlisgəndər Cəfərzadə ilə birlikdə fars dilində yazdığı "Kəlidi-ədəbiyyat" elmi-pedaqoji əsərlərini yazaraq nəşr etdirib.

Azərbaycan maarifinin ağırlığını çiynində şərəflə daşıyan Sultanməcid Qənizadə bir müddət Qori Müəllimlər Seminariyasında da çalışıb.

Bu illərdə o, Azərbaycan mətbuatında müntəzəm çıxışlar etmişdi. Onun sonralar kitab kimi nəşr olunan "Allah xofu", "Qurban bayramı" kimi orijinal əsərləri, "Nabəkar qonşu" hekayəsi "Dəbistan" jurnalında çap olunmuşdur. "Axşam səbri xeyir olur", "Xor-xor", "Dursunəli və ballıbadı", "Lüğəti-rus və türki"əsərləri də həmin illərin məhsuludur.

1908-ci ildə Sultanməcid Qənizadə Qori seminariyasından Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəblərinin ikinci rayon müfəttişi vəzifəsinə köçürülərək 1917-ci ilə kimi bu vəzifədə çalışıb.

Sultanməcid Qənizadə eyni zamanda dövrünün tanınmış mədəniyyət xadimi idi. Onun Azərbaycan teatrının inkişafı sahəsində də böyük xidmətləri olub. Səhnəyə neçə-neçə istedadlı həvəskarın cəlb edilməsinə, teatr truppalarının fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsinə çalışan Sultanməcidin Hüseyn Ərəblinskinin teatra gəlməsində böyük rolu olub. Hüseyn Ərəblinski ilk dəfə məhz S.Qənizadənin rejissorluğu ilə hazırlanmış "Vəziri xani-Lənkəran" komediyasında (1898) Mehtər Kərim rolunu oynamışdır.

Sultanməcid Qənizadə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan Parlamentində milli və dini dəyərləri təbliğ edən millət vəkili kimi ən çox diqqəti "islam-türk" birliyinə yönəltmiş və türk-islam məfkurəsinin sintezindən çıxış etmişdir. 1917-1920-ci illərdə mövcud olan "İttihad" partiyasının liderlərindən bir kimi Qənizadə hesab edirdi ki, islam bayrağının ucalmasında türk qövmləri müstəsna rol oynamışdır. Bu mənada Qənizadə türklüyün müdafiəsində dayanmışdır. O, parlamentdəki bir çox çıxışında bəyan edirdi ki, "İslam birliyi"nin aparıcı rolu türklüyə məxsusdur.

Onun parlamentdəki çıxışları daim türklük və islamlıq əleyhinə çıxış edən daşnaklara və bolşeviklərə qarşı yönəlmişdir. 1918-ci ildə Azərbaycana gəlmiş Qafqaz-İslam ordusuna və onun komandanı Nuru paşaya dəfələrlə böyük sevgi və hörmətini ifadə edən S.Qənizadə Qafqaz-İslam ordusu Azərbaycanı tərk etməyə məcbur olduqdan sonra parlamentdə türk əsgərlərinə qarşı hədyan yağdıran bolşeviklərə və onların əlaltılarına ən sərt cavab verənlərdən biri olmuşdur.

Sultanməcid Qənizadə sovet hakimiyyəti illərində bütün fəaliyyətini milli maarifin inkişafına həsr etmişdir.

O, publisist fəaliyyətini də davam etdirmiş, "Maarif, "Qırmızı günəş" jurnallarında müxtəlif yazıları çap olunmuşdur. Zəngin elmi, pedaqoji yaradıcılıq fəaliyyəti olan maarif xadimi Azərbaycan Maarif Komissarlığının kənd məktəbləri üçün müəllim kadrları hazırlayan pedaqoji texnikumlarında məşğələlər keçməklə yanaşı, müxtəlif rəhbər vəzifələrdə də çalışmışdır.

1934-cü ildən Yazıçılar İttifaqının üzvü olan ədib gənc yazıçıların yaradıcılıq dərnəklərinə başçılıq etmişdir.

Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu yanında lüğət komissiyasının üzvü olan Sultanməcid Qənizadədən 1937-ci ilin reperesiyası da yan keçməmişdir. 1937-ci ildə həbs edilən qocaman maarif xadimi sürgün olunmaqla güllələnməkdən xilas ola bilmişdir. Azərbaycan maarifinin qurucularından olan, görkəmli elm, ədəbiyyat, maarif xadimi Sultanməcid Qənizadə 1942-ci ildə 76 yaşında vəfat etmişdir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

### "Azərbaycan nəsri antologiyası" kitabı işıq üzü görüb

**Sankt-Peterburqda "Azərbaycan nəsri antologiyası" kitabının birinci cildi çapdan çıxıb.**



Antologiyada 1960-cı illərdən indiyədək yazıb-yaradan iyirmi dörd müəllifin müxtəlif janrlarda hekayələri toplanıb.

Antologiyanın ideya müəllifi BDU-nun müəllimi, yazıçı, filologiya elmləri doktoru, professor Vaqif Sultanlı, tərtibatçısı, redaktoru və "Ön söz" müəllifi Sankt-Peterburq Dövlət Universitetinin müəllimi, türkoloq, yazıçı Şahnaz Kamaldır.

Kitabın nəşrinə Azərbaycanın Bosniya və Hersoqovinadakı səfiri Vilayət Quliyev, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının baş katibi Seymur Fətəliyev köməklik göstəriblər.

● Qarabağın incisi

## Şuşa Azərbaycanın mədəniyyət mərkəzidir

**Əsası 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulan, zəngin tarixi keçmişə malik olan Şuşa şəhəri Azərbaycanın mədəniyyət mərkəzi olmuşdur.**

Şuşa qalası uzun illər boyu Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur. XVIII əsrin II yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri özünün xalçası, ipəyi, parçası və süni qabları ilə dünya bazarlarına çıxmış, böyük şöhrət qazanmışdır.

Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Kurortlar şəhəri, muzeylər diyarı, Şərqin musiqi akademiyası sayılan bu şəhər nəinki Azərbaycanın, hətta bütün Qafqazın incisidir.

Şuşanın etnik və tarixi-memarlıq mənzərəsini müəyyən edən bütün məscidlər, karvansaralar, hamamlar, bulaqlar, qalalar, məşhur saray və imarətlər Azərbaycan xalqına məxsusdur və məhz onun tarixi keçmişidir. Bura həm də özünün musiqiçiləri ilə şöhrət qazanmışdır. Elə buna görə də Şuşanı Azərbaycanın təbii konservatoriyası, musiqi sənətinin beşiyi adlandırırlar.

1977-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin qərar nəticəsində abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır.

8 may 1992-ci ildə Şuşa erməni qəsbkarları tərəfindən işğala məruz qaldı. Onlar Azərbaycanın tarixi mədəni irsinə aid abidələri yerləyeksan etdilər, şəhəri tanınmaz hala saldılar. Molla Pənah Vaqif, Xurşidbanu Natəvan, Üzeyir bəy Hacıbəyli, Bülbül və digər sənətkarların Şuşada yaşayıb-yaratdıqları evlər darmadağın edildi, mədəni irsinə böyük zərbələr endirildi.



8 noyabr 2020-ci il... Azərbaycan tarixinə qızıl hərflərlə yazılan Zəfər Günü... Yaddaşlardan silinməyən həmin tarixdə Şuşa şəhəri erməni qəsbkarlarından azad edildi.

Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə Şuşada tarixi abidələrin bərpası və yenilənməsi ilə əlaqədar bu cənnətməkanda hal-hazırda mühüm işlər görülür. Şuşa tezliklə öz əvvəlki şöhrətinə, gözəlliyinə qovuşacaq.

Prezident İlham Əliyevin 7 may 2021-ci il tarixli xüsusi sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdi. Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşmanı zəruri etmişdi.

Ümummilli Lider Heydər Əliyev öz nitqində söyləyirdi ki, Şuşa təkcə şuşalılar üçün deyil, bütün Azərbaycan üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir qaladır, əziz bir abidədir.

***Təranə HƏSƏNOVA,***
***Üzeyir bəy Hacıbəylinin***
***ev-muzeyinin kiçik elmi işçisi***

● Xəbər

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Oşda beynəlxalq festivalın əsas təşkilatçılarından biri olub

**Qırğız Respublikasının Oş şəhərində Çingiz Aytmatovun 95 illik və Muxtar Auezovun 125 illik yubileylərinə həsr olunmuş VII Beynəlxalq "Dünya xalqlarının dastanları" Festivalı keçirilib. Festivalın əsas təşkilatçıları sırasında Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu yer alıb.**

Fonddan bildirilib ki, festival çərçivəsində dörd gün ərzində 20-dən çox ölkədən elmi, mədəni və yaradıcı nümayəndə heyətləri "Zaman və məkanda dastançının mətni" beynəlxalq elmi-praktik simpoziumunda, sənətkarlıq və xalq yaradıcılığı sərgisində, rəvayətçilərin və dastançıların müsabiqəsində, eləcə də "Mədəni müxtəlifliyin paradı" adlı teatrlaşdırılmış qala - konsertində iştirak ediblər.

Festivalda Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunu təşkilatın layihə rəhbəri Mirbek Karıbayev təmsil edib.




Festival çərçivəsində "Zaman və məkanda dastançının mətni" adlı beynəlxalq elmi-praktik simpoziumu gerçəkləşib.

Simpoziumda Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən nəşr edilmiş Azərbaycanlı manasşünas Adil Cəmilin "Manas eposu və türk dastançılıq ənənələri" kitabının təqdimatı keçirilib.

Tədbirdə 20-dən çox ölkədən 60-a yaxın alim iştirak edib.

## "Azərişıq" ASC "Mingəçevir şəhəri ərazisində yerləşən mövcud 35/6 kV-luq 2x10 MVA gücündə "Karxana" yarımstansiyasının 110/35/6 kV-luq 2x40 MVA gücündə yenidənqurulması və 110 kV-luq şəbəkə ilə əlaqələndirilməsi" işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1**

Mingəçevir şəhəri ərazisində yerləşən mövcud 35/6 kV-luq 2x10 MVA gücündə "Karxana" yarımstansiyasının 110/35/6 kV-luq 2x40 MVA gücündə yenidənqurulması və 110 kV-luq şəbəkə ilə əlaqələndirilməsi işlərinin satın alınması - 1500 manat

**Azərişıq ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Namik Heybətov (telefon: 440-39-93 daxili (92-19)) namiq.heybetov@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə;*
4. *İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış;*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
7. *İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
8. *İddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;*
9. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
10. *İddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar, analoji işlərdə təcrübəsi haqqında məlumat;*
11. *İddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat;*
12. *Müvafiq işlər üzrə lisenziya və sertifikatları;*
13. *İddiaçı şirkətin rəhbərinin, habelə işlərini idarə edənlərin satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində məhkum olunmaması haqqında arayış;*
14. *Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (Əmr)*
15. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
16. *Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (təklifin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır). Arayışların verilmə tarixi cari ay və il üçün qoyulması məcburidir. Hüquqi və digər sənədlərin yalnız əsli, əsli olmadığı halda surəti notarial qaydada təsdiq olunmalıdır.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/). İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **06 iyul 2023-cü il saat 12:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **14 iyul 2023-cü il saat 12-00-a** qədər Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri **17 iyul 2023-cü il tarixdə saat 12-00-da** Mirzəağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***



## Tovuz rayonu ərazisində 110/35/10 Kv "Tovuz Şəhər" yarımstansiyasının 2x25 MVA gücündə yenidən qurulması, giriş-çıxış xətlərinin köçürülməsi işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1**

"Azərişıq"ASC-nin Tovuz rayonu ərazisində 110/35/10 Kv "Tovuz Şəhər" yarımstansiyasının 2x25 MVA gücündə yenidən qurulması, giriş-çıxış xətlərinin köçürülməsi işlərinin satın alınması - 850 manat

**"Azərişıq" ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: "Kapital Bank"ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Namik Heybətov
Əlaqə telefonu (şəhər): 012 440 39 93 (daxili 92-19)
Elektron poçt: **namiq.heybetov@azerishiq.az**
Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi, 130, AZ1009

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki);*
- *müvafiq lisenziya və icazələr;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar;*
- *iddiaçının analoji işlərdə obyektlərin tikintisi üzrə baş podratçı qismində həyata keçirdiyi və tətbiq etdiyi uğurlu ən azı 3 layihənin bitməsinə dair tövsiyə məktubunun və apardığı layihənin ilk və sonuncu sənədlərinin surəti;*
- *podrat müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maddi-texniki bazasının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olmasını təsdiq edən sənəd;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir **(www.tender.gov.az)**.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **06.07.2023-cü il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **17.07.2023-cü il saat 15:00-a** qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **18.07.2023-cü il tarixində saat 15:00-da** Mirzağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC gəmiləri üçün dizel generatorlarının satın alınması məqsədilə

### *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 06 iyun 2023-cü il saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***


# Bəzi yerlərdə yağış yağacağı ehtimalı var

Azərbaycanda mayın 26-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Səhər bəzi yerlərdə yağış yağacağı, duman olacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək, axşam cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın




temperaturunun gecə 16-21°, gündüz 25-30° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi normadan aşağı - 758 millimetr civə sütunu, nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 30-35° isti, dağlarda gecə 7-12°, gündüz 15-20° isti olacağı bildirilir.


# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Nəhəng enerji potensialına malik iqtisadi güc
Rusiya-Azərbaycan münasibətləri dinamik şəkildə inkişaf edir
İlham Əliyevin yaratdığı qüdrətli Azərbaycanı Avropada belə adlandırırlar
Sabit iqtisadiyyat, əlverişli investisiya mühiti
2022-ci ilin dövlət büdcəsi uğurla icra edilib
Nağdsız ödənişlərin "nağd" problemi
Keçmiş hərbi xunta etiraz aksiyalarından yararlanmağa çalışır
Qərbi Azərbaycan İcması tarixi torpaqlarımızda mədəni irsin vəziyyətinin monitorinqinin keçirilməsini tələb edir
Qayıdış missiyası

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# İranın narkotik "bazarı"

**Vətən müharibəsindən sonra ölkəmizə qarşı düşmənçiliyini açıq şəkildə sərgiləməyə başlayan İran Azərbaycanın Cənubi Qafqazın lider ölkəsi olmasını heç cür həzm edə bilmir, dövlətimizi və xalqımızı hədəf alan xain planlar, terror siyasəti həyata keçirir.**



44 günlük müharibədən sonra guya ölkəmizə güc nümayiş etdirmək niyyəti ilə köhnə, sınıq-salxaq hərbi texnikası ilə Azərbaycan sərhədində hərbi təlimlər keçirərək, özünü dünyaya güldürən İran, müsəlman dünyasına üz qarası olduğunu sübut edərək Qafanda konsulluğunu açıb, öz istehsalı olan silahları Hayastana hədiyyə edib.

Bu il yanvarın 27-də Tehrandakı səfirliyimizdə, martın 28-də isə deputatımıza qarşı qanlı terror aktları törətməsi isə fars rejiminin terrorçu xislətini bir daha ortaya qoydu.

Hətta fars rejimi həddini aşaraq Azərbaycanda şəriət qanunları ilə idarə olunacaq "dövlət" yaratmaq kimi quduz iştahaya düşmüşdü, lakin ölkəmizin xüsusi xidmət orqanları Azərbaycanda İranın yaratdığı casus şəbəkələrini ard-arda ifşa edərək xain qonşunun çirkin niyyətini gözündə qoymuşdu.

## Son 5 ildə İrandan ölkəmizə daşınan narkotik vasitələrin həcmi 9 dəfə artıb

O da faktdır ki, İran uzun illərdir Azərbaycana qarşı həm də narkotik terroru həyata keçirir və bu çirkin əməlini günümüzdə də davam etdirməyə çalışır.

Mayın 24-də Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, Xəzər dənizinin İran sahillərindən qayıqlarla ölkəmizə qaçaqmalçılıq yolu ilə narkotik vasitələri gətirən mütəşəkkil dəstənin üzvləri saxlanılıblar.

Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzindən verilən məlumatda isə bildirilir ki, göstərilən tarixdə İrandan Azərbaycana 13 kiloqram narkotik maddənin keçirilməsinin qarşısı alınıb.

Bu ilin aprelində Dövlət Sərhəd Xidməti rəisinin müavini general-leytenant Firuz Şirinzadə mətbuata müsahibəsində məlumat vermişdi ki, son 5 ildə İrandan ölkəmizə daşınan narkotik vasitələrin həcmi 9 dəfə artıb. Belə ki, 2018-ci ildə 144,8 kq, 2022-ci ildə isə 1 ton 302 kq narkotik vasitə İİR ilə dövlət sərhədindən qanunsuz yolla gətirilərkən aşkarlanmışdı.

Ümumiyyətlə, 2021-2022-ci illərdə Azərbaycan-İran dövlət sərhədində (yaşıl sərhəddə) tutulmuş qaçaq malın ümumi kütləsi 2 ton 113,3 kq olub: "2018-2020-ci illərdə - yəni əvvəlki 3 il ərzində dövlət sərhədində cəmi 1 ton 222 kq narkotik vasitənin tutulduğunu nəzərə alsaq, rəqəmlərdə kəskin artımın olduğunu görə bilərik. Bu isə onu göstərir ki, Vətən müharibəsindən əvvəlki dövrdə narkotik qaçaqmalçılığının böyük hissəsi Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik işğal altında olan hissəsinin payına düşüb".

Bu gətirdiyimiz faktlardan da görünür ki, din adı altında şeytani əməllərlə məşğul olan fars-molla rejimi ölkəmizdə narkotika istifadəçilərinin sayını artırmaq, xüsusilə gənclərimizi bu təhlükəli maddənin aludəçilərinə çevirmək, bu yolla insanlarımızı özlərindən asılı vəziyyətə salaraq ölkəmizə qarşı çirkin əməllərini məhz onların əli ilə törətməyə çalışır.

## İşğal dövründə ərazilərimizdən narkotik qaçaqmalçılığı üçün istifadə edilib

Torpaqlarımızın 30 illik işğalı dövründə İran həmişə ərazilərimizdən narkotik biznesi üçün istifadə edib və Vətən müharibəsindən sonra ölkəmizə qarşı aqressiyasının artması da elə bununla bağlıdır.

Faktlarla sübut olunub ki, fars rejimi torpaqlarımız işğalda olarkən ərazilərimizin talanmasında birbaşa iştirak edib. Hayastan Qarabağda sökdüyü evlərdən əldə olunan tikinti materiallarını, həmçinin bu ərazidəki meşələrimizdə qiymətli ağacları qıraraq İrana satıb.

Həmin dövrdə Ermənistan Azərbaycanın işğal edilmiş Qarabağ ərazilərinə İran İslam İnqilabı Keşikçiləri Korpusunun təşkilatçılığı ilə yük maşınlarında yanacaq və silah daşıyıb. Azərbaycanın işğal altında olan ərazilərindən həm narkotik plantasiyalarının yaradılması, bu maddələrin istehsalı, həm də Şərqdən Qərbə doğru gedən narkotrafik marşrutu kimi istifadə olunub və bu işdə İran xüsusi fəallıq göstərib.

Azərbaycan-İran sərhədinin düşmən işğalında olan sərhəd zolağından qanunsuz qaçaqmalçılıq üçün istifadə edən İran bu cinayət yolu ilə xeyli çirkli pullar əldə edib.

Təbii ki, 44 günlük müharibədə Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi İrana heç cür sərf etmirdi və buna görə idi ki, müharibə ərəfəsində "qardaşı" Hayastana hər cür yardım göstərirdi. "Dəmir yumruq" xain düşmənin başını əzdikdən sonra İranın bu ərazilərimizdə qanunsuz fəaliyyətinin qarşısı birdəfəlik alındı.

Bundan sonra isə fars rejimi başqa məkrli yollara baş vurmağa, ölkəmizə qarşı təxribatlar və terror, xüsusilə də narkotik terroru törətməyə başladı.

Statistikada da əks olunduğu kimi, 44 günlük müharibədən sonra İrandan Azərbaycana narkotik qaçaqmalçılığının həcmi külli miqdarda artıb.

Lakin fars-molla rejiminin ölkəmizə, xalqımıza qarşı planlaşdırdığı istənilən təxribat və terrorun qarşısı Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən qətiyyətlə alınır. Eləcə də İranın narkotik terroru ilə bağlı məkrli planları sərhədimizdə, Azərbaycanın kandarındaca altüst, faş edilir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti



**ALLAH RƏHMƏT ELƏSİN!**

Akademik Mehdi Mehdizadə (keçmiş Maksim Qorki) adına Cəbrayıl şəhər tam orta məktəbin 1980-ci il buraxılış, 10[a] sinfinin məzunları sinif yoldaşları Nəsib Rəhimova qardaşı

**SƏRVƏR ƏŞRƏF OĞLU RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5792
Sifariş 1316

Qiyməti 40 qəpik